Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# Bakı Xəbər

26 NOYABR 2019-cu il

№ 209 (4107)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ABŞ RUSİYANIN AVROPAYA BÖYÜK QAZ NƏQLİ XƏTTİNƏ QARŞI SANKSİYALARI 2020-ci İLİN MÜDAFİƏ BÜDCƏSİNƏ DAXİL ETDİ...

■ səh. 8 ■



## Mehriban Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin bəzi yeni perspektiv istiqamətlərini aktuallaşdırdı...

■ səh. 3 ■


"Bakı-Xəbər" - qəzetdən sayta, "TV" yayıma... ■ səh. 3 ■

Moskvanın təzyiq kartlarını işə salması Qarabağ münaqişəsinin həllini tezləşdirəcək ■ səh. 9 ■

Azərbaycana və Ermənistana qarşılıqlı səfərlər etmiş jurnalistlərin tərkibi niyə açıqlanmır... ■ səh. 4 ■

Ermənistan mediası jurnalistlərin qarşılıqlı səfərlərini top-tüfənglə qarşılayır... ■ səh. 4 ■

Ermənistanda yanvardan ərzaq və qidaların dəhşətli bahalaşması qaçılmaz oldu, Azərbaycanda isə... ■ səh. 7 ■

Qeyri-neft sektorunda Rusiyanın əsas ticarət tərəfdaşı kimi Azərbaycan qəti mövqelərə keçir... ■ səh. 10 ■

Bakıda erməni dili kursları... ■ səh. 11 ■

"Suşi"dən tələbə dünyasını dəyişdi, "suşi" reklamçıları öz işlərindədir... ■ səh. 13 ■







## Jurnalistlərin qarşılıqlı səfərləri barədə Ermənistan XİN-in açıqlaması - xalqları sülhə hazırlamaq prosesinə qarşı aşkar təxribat...

■ səh. 5 ■

## Əli İnsanov nələrə ümid edərək partiya yaratdı...

■ səh. 6 ■

## Müsavat Partiyası mühacirlərə verdiyi arayışları niyə açıqlamır...

■ səh. 7 ■

■ səh. 2 ■

"Cəmiyyət Əli İnsanovu yarımçıq siyasi ambisiyaların qisasını almağa çalışan intiqamçı fiqur kimi tanıyır"



■ səh. 6 ■

Avropa Koordinasiya Mərkəzi Müsavat Partiyasının strukturu sayılırsa...



■ səh. 13 ■

İcbari tibbi sığortanın bütün ölkə miqyasında eyni vaxtda tətbiq qərarı niyə dəyişdi...



■ səh. 15 ■

Yediyimiz əsasən palma yağları imiş, hətta kərə yağı da...



■ səh. 14 ■

48 min nikah, cəmi 105 nikah müqaviləsi - nonsens...



**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-24-də Rusiyada rəsmi səfərdə olub. O, Prezident Vladimir Putinlə görüşüb. Vladimir Putin onu iki ölkənin münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edib.**

# Mehriban Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin bəzi yeni perspektiv istiqamətlərini aktuallaşdırdı...

***Aydın Mirzəzadə:** "Mehriban Əliyevanın səfəri hər iki ölkənin maraqlarına cavab verir və ölkələrimiz arasında əlaqələrin daha da güclənməsi, bu istiqamətdə yeni sahələrin inkişafına kömək edəcək"*



Bundan əlavə, Mehriban Əliyeva Rusiya Hökumətinin başçısı Dmitri Medvedyev və Federasiya Şurasının sədri Valentina Matviyenko ilə də görüşüb. Mehriban Əliyeva səfər müddətində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bərpa olunmuş "Azərbaycan" pavilyonunun açılışında iştirak edib.

Birinci vitse-prezident TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana, "Rossiyskaya qazeta" və "Rossiya-24" telekanalı üçün müsahibəsində səfərinin yekunları barədə danışıb. Həmin geniş müsahibədə Mehriban xanım Rusiya-Azərbaycan münasibətlərinin hazırkı durumu və gələcək perspektivləri barədə ətraflı fikir bildirib. M.Əliyeva, həmçinin, Rusiya-Azərbaycan münasibətlərinin bəzi yeni perspektiv istiqamətlərini aktuallaşdırıb. M.Əliyevanın Rusiya səfəri ölkələrimiz arasında daha hansı yeni imkanların mövcudluğunu gündəmə gətirmiş oldu?

Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, M.Əliyevanın Rusiyaya etdiyi səfərin özü böyük bir hadisədir: "Mən bunu yalnız Rusiya ilə Azərbaycan üçün deyil, həm də bütün dünya üçün əhəmiyyətli sayıram. Bundan əlavə, iki ölkə arasında olan çox yaxın və xoş münasibətlər Birinci vitse-prezidentin səfərinə olan diqqəti daha yüksəyə qaldırdı. Tərəflər mövcud əlaqələri müzakirə etmək üçün geniş müzakirələr apardılar. Eyni zamanda, yeni təşəbbüslərlə bağlı bir çox fikirlərin üst-üstə düşdüyü məlum oldu. Şübhəsiz ki, Mehriban xanımın verdiyi müsahibələr və etdiyi çıxışlarda bütün bunların konturları aydın cızılıb. Yeni istiqamətlər barədə isə bunları demək olar. Birincisi, Azərbaycan və Rusiyanın beynəlxalq aləmdə əlaqələrinin daha da genişləndirilməsi. İkincisi, iqtisadi inteqrasiyanın da artırılması. Ticarət və iqtisadi əlaqələrin bugünkü 2,6 milyard ABŞ dollarından daha yüksək səviyyəyə qaldırılması. Yeni texnologiyalardan birgə istifadə etmə, humanitar sahələrdə əlaqələrin gücləndirilməsi, müasir təhsil modelinin yaradılmasının da həmən yeni perspektivlər sırasına aid etmək olar. Hesab edirəm ki, tərəflərin bir-birinin tarixi və mədəniyyəti ilə daha dərindən tanış olması ilə bağlı məsələlər də müzakirə mövzusu ola bilər. Rusiyada keçirilən rəy sorğusu şirkətləri tez-tez vətəndaşlara "Rusiyanın dostu hansı ölkələrdir" sualı ilə müraciət edirlər.

Əvvəllər həmin rəy sorğularının nəticələrinə görə, Azərbaycan 3-4 faiz səslə ilk onluqda qərar tuta bilirdi. Son nəticələrə görə isə Azərbaycan 16 faizlə Rusiyanın dostları sırasında 5-ci yerdə qərarlaşıb. Bu göstəricinin gələcəkdə daha da artacağı gözlənir. Hesab edirəm ki, M.Əliyevanın səfəri hər iki ölkənin maraqlarına cavab verir və ölkələrimiz arasında əlaqələrin daha da güclənməsi, bu istiqamətdə yeni sahələrin inkişafına kömək edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Əli İnsanov və onun tanınmayan azsaylı komandası Azərbaycanın daxili siyasətində son 15 ilin ən uğursuz addımını atdı. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

# Aydın Quliyev: "Cəmiyyət Əli İnsanovu yarımçıq siyasi ambisiyaların qisasını almağa çalışan intiqamçı fiqur kimi tanıyır"




Onun sözlərinə görə, ölkədə sosial sifarişin tamamilə olmadığı bir şəraitdə yeni siyasi partiyanın yaradılması barədə qərar vermək reallıqdan və obyektivlikdən uzaq olmaqla, mübahisəsiz risqli addım sayılır: "Ə.İnsanov haqq və ədalət kimi gurultulu terminlərin hay-küyü altında siyasi səhnəyə qədəm basmağı böyük uğurların ilk şərti saysa da, bu ümidlər bir sıra ciddi məqamlara görə əsası olmayan eyforiyadan başqa bir şey deyil. Ciddi və təsirli beynəlxalq dairələrin hazırda Azərbaycanla iri regional və ölkədaxili layihələrin icra prosesinin içində olmasını nəzərə alaraq, yeni siyasi partiyaya dünya miqyasında da önəmli bir marağın olmadığını bu başdan inamla iddia etmək mümkündür. Yeni siyasi partiyanın təsis qərarı artıq indidən Azərbaycan cəmiyyətində sərt ittihamedici və şübhəyaradıcı suallar doğurmağa başlayıb. Cəmiyyətimizdə baş qaldıran suallar, əsasən, Ə.İnsanovun nazir olduğu dövrlə, yeni partiya üçün nəyə görə qeyri-siyasi terminlərdən ibarət ad seçməsi, nazir olanda rüşvət və korrupsiyaya qarşı heç bir prinsipial mübarizə jesti etməməsi, vaxtilə rəhbərlik etdiyi sahədə hər hansı islahatçılıq səyləri göstərməməsi, partiyanın adındakı haqq və ədalət terminlərinin onun şəxsi həyat və fəaliyyət fəlsəfəsinə uyğun olub-olmaması və sairlə bağlıdır. Razılaşaq ki, bunların hər biri ictimaiyyətin nəzərində Ə.İnsanovla bağlı kifayət qədər dərin və geniş ittihamlar doğuran mövzulardır.

Ən ciddi məqamlardan biri odur ki, cəmiyyət Ə.İnsanovu ölkə miqyaslı sosial-iqtisadi dəyişikliklər yaratmaq gücündə olan siyasi intellektual kimi yox, sadəcə, gerçəkləşdirə bilmədiyi yarımçıq siyasi ambisiyaların qisasını almağa çalışan intiqamçı fiqur kimi tanıyır. Daha dəqiq desək, Haqq və Ədalət Partiyası kimi təqdim olunan qrup, sadəcə, qisas mexanizmidir".

Ekspert bildirib ki, Ə.İnsanovun özünü zorən siyasətə gətirməsinə baxmayaraq, dünyanın və ictimaiyyətin onu qeyri-siyasi, bir sıra keçmiş fəaliyyətlərə görə mafioz, yalnız maddi dəyərlər üçün işləyən şəxs kimi tanıması da olduqca ciddi faktordur və yeni partiyanı bu başdan qaçılmaz iflasa məhkum edir: "Ə.İnsanovun və məhdud komandasının yeni partiyanın siyasi-ideoloji platformasını yaratmaq gücündə və potensialında olmadığı da müzakirə olunan məqamlar sırasındadır. Ə.İnsanov son 15 il ərzində ölkənin hər hansı sosial-iqtisadi məsələləri ilə bağlı konseptual və siyasi intellektual yükü olan açıqlama ilə çıxış etməyib. Əsasən ittihamçı, intriqaçı və atmaca xarakterli açıqlamalarla gündəmdə qalan eks nazirin insanların düşüncəsini özünə cəlb edən heç bir siyasi lider keyfiyyətinə malik olmadığını Azərbaycan auditoriyası yaxşı bilir. Bir dövlət məmuru kimi uğursuz olmuş Ə.İnsanovu cəmiyyət hətta yaxşı həkim və yaxşı insan kimi də tanımır. Eks nazirin normal siyasi dialoq və siyasi mükalimə aparmaq, böyük auditoriyalar qarşısında kütləvi emosional nitqlər söyləmək qabiliyyətinin yoxluğunu hər kəs bilir və görür".

A.Quliyev qeyd edib ki, əvvala, Ə.İnsanovun özünün cəmiyyətdə perspektivli, cəlbedici və xarizmatik imici yoxdur: "İkincisi, Azərbaycanda yeni siyasi partiyaya hazırda heç bir siyasi və sosial sifariş yoxdur. Üçüncüsü, siyasi lider imici olmayan eks nazirin siyasətə qisasçı - məişət düşüncələri ilə gəldiyini ictimaiyyətə sübut etməyə gərək qalmayıb. Dördüncüsü, nazir olduğu dövrdən insanların yaddaşında qeyri-siyasi və qeyri-humanist obrazla qalıb. Beşincisi, mühüm sosial paketlər kursunun həyata keçirildiyi indiki dövrdə hər hansı radikal qüvvənin, o cümlədən, Ə.İnsanovun sosial baza toplaya biləcəyi qətiyyən inandırıcı deyil. Altıncısı, Ə.İnsanovun çox ümid etdiyi və ənənəvi olaraq Qərbi Azərbaycan elektoratı adlandırılan kəsimin ona azacıq da olsa meyl edəcəyinin heç bir əlaməti yoxdur. Yeddincisi, onun partiyasının hər hansı beynəlxalq dəstəyə nail ola biləcəyi, ümumiyyətlə, düşünülmür. Nəhayət, siyasi partiya quruculuğunda çox həlledici faktor sayılan maliyyə qaynaqları məsələsində Ə.İnsanov ictimaiyyətlə heç bir manevr etmək imkanında deyil və hara tərpənsə, "korrupsiya pulları ilə hərəkət edir" kimi ağır ictimai qınaqla üzləşəcək. Tərəfdaş kimi təqdim etdiyi kadrlar vitrininin personal tərkibi isə onun, ümumiyyətlə, komandaya malik olmadığını əyani şəkildə göstərir".

# "Bakı-Xəbər" - qəzetdən sayta, "TV" yayıma...

*"Bakı-Xəbər" bir brenddir, bu brend bu gün Azərbaycanda, eyni zamanda, beynəlxalq miqyasda tanınır"*

**Müasir internet televiziyası məkanına yeni bir televiziya da daxil oldu. Noyabrın 25-də "Bakı-Xəbər" ailəsinin növbəti layihəsi olan "Bakı-Xəbər" TV-nin açılış mərasimi keçirildi. "Bakı-Xəbər" kollektivinin böyük sevinclə və yaradıcılıq axtarışları ilə çıxdığı yeni uğurlu yolun, əlbəttə, sonucunda bizi böyük tamaşaçı sevgisinin müvəffəqiyyətlərinin gözlədiyinə şübhəmiz yoxdur.**

Zaman-zaman Azərbaycan oxucusunun sevimli, hər zaman tələbatı olduğu mətbu orqana çevrilən "Bakı-Xəbər"in bu gün yeni bir layihə ilə tamaşaçıların görüşünə gəlməsi mühüm hadisədir.

"Bakı-Xəbər" TV-nin açılış mərasimində "Bakı-Xəbər" qəzetinin baş redaktoru, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, tanınmış ictimai-siyasi xadim Aydın Quliyev çıxış edərək "Bakı-Xəbər"in keçdiyi yaradıcılıq yolundan danışdı. Qəzetin tarixində önəmli bir dövr başladığını qeyd edən A.Quliyev bildirdi ki, "Bakı-Xəbər" TV-nin internet və sosial şəbəkələr üzərindən birbaşa və montajlı yayımı üçün lazım olan bütün texniki vəsaitlər və şərait mövcuddur. "Bu işdə kollektivimizin hər bir üzvünün əməyi olub. "Bakı-Xəbər"in hər bir əməkdaşı əlindən gələn işin qulpundan yapışdı, bunun nəticəsidir ki, biz qısa bir vaxtda bu işin öhdəsindən gələ bildik. Bu işdə bizə redaksiyamızdan kənarda bir sıra dostlarımızın qiymətli dəstəyi oldu. İnşallah, bir gün biz onların iştirakı ilə də bir toplantı keçirəcək, onların əməyini qiymətləndirib, onlara təşəkkürümüzü bildirəcəyik.

"Bakı-Xəbər" qəzeti Azərbaycanın müstəqillik dövrü tarixində önəmli bir hadisə kimi yarandı. İlkin dövrdə "Bakı-Xəbər" bir partiya qəzeti kimi yaransa da, cəmi 1 ayın içində ölkədə çox populyar olan, Azərbaycanın o dövr üçün ictimai rəyə təsir göstərən üç önəmli qəzetindən birinə çevrildi. Sonrakı dövrdə "Bakı-Xəbər" partiyalı qəzet mövqeyindən müstəqil mövqeyə çox uğurla keçid edən ilk qəzet nümunəsi kimi bizim tariximizdə qaldı. İlk dəfə olaraq "Bakı-Xəbər" qəzeti partiyalı mövqedən müstəqilliyə keçid etdi, bu çox uğurlu bir keçid idi. Sonradan başqa qəzetlər də belə addımlar atdılar, tarix də sübut etdi ki, siyasi partiyaların tabeliyində, onların platforması üzərində media orqanları üçün inkişaf yoxdur və biz tamamilə doğru seçim etmişdik. Bu dövr ərzində "Bakı-Xəbər" qəzeti çoxlu asan, çətin mərhələlərdən keçib, bu mərhələlərin heç birində biz tənəzzül yaşamadıq, "Bakı-Xəbər" həmişə inkişafda, tərəqqidə oldu. Biz bütün bu dövr ərzində dövlətçilik, vətənpərvərlik, peşəkarlıq və obyektivlik prinsipini əsas götürərək fəaliyyət göstərdik. Biz nə etdiksə, bu prinsiplərə söykənərək etdik, nə yaratmaq mümkün idisə, məhz bu prinsiplərin naminə yaratdıq. Qürur hissilə deyə bilərik, biz ona görə bütün mərhələlərdə uğurlar qazandıq ki, qeyd etdiyim bu prinsiplərə həmişə sadiq qaldıq. Biz prinsiplərimizin yolunda fəaliyyəti davam etdik. "Bakı-Xəbər" bir məktəb rolunu oynadı. Burada saysız-hesabsız jurnalist yetişdi, bu gün onların müəyyən bir hissəsi bizimlə bərabər redaksiyada fəaliyyət göstərir, başqaları isə özləri ölkədə ictimai rəyə təsir edən, tanınmış media orqanlarına rəhbərlik edirlər. Çox önəmli olan bir tərəf də odur ki, onlar məhz "Bakı-Xəbər"in yetirmələri olduqlarını heç vaxt unutmurlar və bunu qürur hissilə deyirlər. "Bakı-Xəbər" qəzeti ötən tarix ərzində çox böyük keyfiyyət dəyişikliklərinə məruz qaldı. O mənada ki, cəmiyyət mərhələdən-mərhələyə keçdikcə, zamanın tələbinə uyğun olaraq biz də yeniləndik və bu yenilənmələrin hamısı uğurla sona çatdı.

"Bakı-Xəbər" bir vaxtlar təkcə qəzet kimi yaranmışdı, sonradan onun internet saytını yaratdıq, həmin sayt bir neçə dəfə yeniləndi, bu gün onlayn rejimdə yenilənən və ölkənin ciddi media orqanlarından biri kimi tanınır. Ondan sonra "Bakı-Xəbər"in müxtəlif sosial şəbəkələrdə, o cümlədən, "Facebook" və "Tvitter"də hesabları yaradıldı. O hesablar da bu gün aktiv şəkildə fəaliyyət göstərirlər. Biz videoxəbərlər blokunu yaratdıq.

Bu gün isə növbəti bir layihəmizi təqdim edirik, biz "Bakı-Xəbər"in internet üzərindən birbaşa və montajlı yayımını yaradırıq. "Bakı-Xəbər" qəzeti ilkin olaraq tək bir pillə kimi yarandı və bu gün isə artıq böyük bir ailəyə çevrilib. "Bakı-Xəbər" qəzeti müasir Azərbaycanın tarixində önəmli rol oynadı" - deyə bildirən A.Quliyev vurğuladı ki, "Bakı-Xəbər"də yetişən saysız jurnalist yalnız qəzetin deyil, həm də, bütövlükdə, Azərbaycanın qazancıdır.

"Bakı-Xəbər" qəzetinin inkişafına töhfələr verən redaksiya əməkdaşlarına buna görə təşəkkür edən baş redaktorumuz qeyd etdi ki, qəzetin bu səviyyəyə çatmasında kollektivin hər bir üzvünün özünəməxsus rolu var. "Əminəm ki, "Bakı-Xəbər" bundan sonra da yüksələn xətt üzrə fəaliyyət göstərəcək, yeni-yeni keyfiyyət formaları kəsb edəcək. Çünki dünyanın, zamanın, Azərbaycanın inkişaf çağırışlarına cavab olaraq, biz də həmin çağırışlara uyğun pillədən-pilləyə yeni-yeni formalar kəsb edərək fəaliyyətimizi davam etdirəcəyik. "Bakı-Xəbər" bir brenddir, bu brend bu gün Azərbaycanda, eyni zamanda, beynəlxalq miqyasda tanınır, bizim beynəlxalq əlaqələrimiz var. Dünyanın bir sıra tanınmış media orqanları ilə əlaqələr saxlayırıq. Müxtəlif təmsilçilik nailiyyətlərimiz var. "Bakı-Xəbər" Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvüdür. "Bakı-Xəbər" qəzeti bir sıra beynəlxalq tədbirlərdə Azərbaycanı, Azərbaycan mediasını layiqətlə təmsil edib. Bu da bizim aktivimizdə çox dəyərli, qiymətli nüanslardan biridir.

Yeni bir yola çıxırıq, əminəm ki, bu yolun da nəticəsi çox uğurlu olacaq. "Bakı-Xəbər" qəzeti 16 il əvvəl yarandıqda ona şübhə ilə yanaşanlar da vardı, Azərbaycanın qəzet bolluğu mühitində onun uğur qazanacağına o qədər də inanmırdılar. Sonradan "Bakı-Xəbər"in fədakarlığı nəticəsində əldə olunan böyük nailiyyətlərə rəğmən, onlar düzgün yolda olmadıqlarını anladılar və hamı qəbul etdi ki, "Bakı-Xəbər" qəzeti bu insanların kollektiv zəhmətinin üzərində yaranıbsa, bu kollektivin çiyinləri üzərində də inkişaf edəcək. Yeni layihəmizin fəaliyyətə başlaması münasibətilə sizi təbrik edirəm".




**Aydın Quliyev:** *"Əminəm ki, "Bakı-Xəbər" bundan sonra da yüksələn xətt üzrə fəaliyyət göstərəcək, yeni-yeni keyfiyyət formaları kəsb edəcək"*

**İltifat Əliyarlı:** *"Hesab edirəm ki, "Bakı-Xəbər"in bütün kollektivi 25 noyabr 2019-cu il tarixini, bu əlamətdar günü heç vaxt unutmayacaq"*

A.Quliyevin çıxışından sonra qəzetimizin ağsaqqal əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, tədqiqatçı-alim İltifat Əliyarlı "Bakı-Xəbər" TV-nin yaradılması münasibətilə kollektivimizi və tamaşaçıları təbrik etdi.

"Hesab edirəm ki, "Bakı-Xəbər"in bütün kollektivi 25 noyabr 2019-cu il tarixini, bu əlamətdar günü heç vaxt unutmayacaq. Bu nəinki "Bakı-Xəbər"in, eləcə də kütləvi informasiya vasitələrinin tarixində yeni bir mərhələdir. "Bakı-Xəbər" TV-nin fəaliyyəti xeyirli-uğurlu olsun. "Bakı-Xəbər" internet televiziyası artıq fəaliyyətə başlayır və əminik ki, bundan sonra çoxlu uğur əldə olunacaq, bu televiziyada mühüm məsələlərlə bağlı saysız müsahibə, reportaj, proqramlar təqdim olunacaq. "Bakı-Xəbər" qəzeti müstəqil Azərbaycanın yetirməsidir. Heç bir mübaliğəyə yol vermədən qeyd etməliyik ki, bu gün Azərbaycanda "Bakı-Xəbər" qəzetinin imici də çox müsbətdir. Bu qəzetdə müxtəlif mövzularda məqalələr dərc olunur ki, bu da "Bakı-Xəbər" qəzeti kollektivinin zəhməti hesabına başa gəlir. Bu həm də qəzetin yaradıcı və texniki heyətinin peşəkarlıq səviyyəsindən xəbər verir. "Bakı-Xəbər" qəzetinin bu uğurları, ilk növbədə, bizim əzizimiz Aydın müəllimin adı ilə bağlıdır. O bu qəzeti yaradıb, bugünkü səviyyəyə gətirib çıxarıb. Aydın müəllimin fəaliyyəti qəzetlə məhdudlaşmır, müxtəlif radio və televiziya kanallarında çox maraqlı polemikalarda iştirak edir, cəmiyyətə, dövlətə fayda verən maraqlı çıxışlar edir. Bu gün onun çıxışlarının saysız pərəstişkarı var".

On ilə yaxındır "Bakı-Xəbər"də çalışdığını deyən İ.Əliyarlı qəzetin redaksiyasına yeni nailiyyətlər və yaradıcılıq üfüqlərinin geniş olmasını arzuladı.

Sonra "Bakı-Xəbər" qəzetinin baş redaktoru A.Quliyev əlavə etdi ki, "Bakı-Xəbər" həmişə elə kursla fəaliyyət göstərib ki, bu kursun ölkəmizdə onminlərlə, daha artıq tərəfdarı, təəssübkeşi olub. "Bunlarla bərabər, əlbəttə, bizi sevməyənlər də, kursumuzu qəbul etməyənlər də olub. Bu gün də bizim saysız izləyicimizlə, təəssübkeşimizlə bərabər, qəzetin kursundan məmnun qalmayanlar da var. Amma "Bakı-Xəbər" brendinə kimin hansı münasibətdə olmasından asılı olmayaraq, "Bakı-Xəbər" çox ciddi, obyektiv, mümkün qədər ədalətli olmağa çalışan bir tribuna kimi tanınır. Bu, ölkənin içində də, beynəlxalq dairələrdə də, diplomatik korpuslarda da belədir.

"Bakı-Xəbər"in mümkün qədər ədalətli olmaq, obyektiv, vicdanlı bir imici var. Hesab edirəm ki, biz bu imicin ləkələnməsinə heç bir vəchlə imkan verməməliyik" - deyə baş redaktorumuz bildirdi.

**"Bakı-Xəbər" ailəsi olaraq "Bakı-Xəbər" internet televiziyasının yaradılması münasibətilə bütün oxucu və izləyicilərimizi ürəkdən təbrik edirik.**

*İradə SARIYEVA*

**Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərləri ilə bağlı layihə ətrafında müzakirələr bir müddət əvvəl aparılırdı. Hətta ölkəmizdə buna açıq formada etiraz edənlər də az olmadı. Bir neçə media nümayəndəsi Xarici İşlər Nazirliyinin qabağında etiraz aksiyası da keçirdi.**

# Azərbaycana və Ermənistana qarşılıqlı səfərlər etmiş jurnalistlərin tərkibi niyə açıqlanmır...

## *Azər Həsrət: "Axı həmin həmkarlarımız ora özəl və ya turistik səfər etməyiblər"*



Sonra sosial şəbəkələrdən məlum oldu ki, artıq səfər reallaşıb. Bu xəbəri də hər hansı bir rəsmi qurum yaymadı. Bizim jurnalistlər erməni jurnalistlərin sosial şəbəkələrin onlara aid olan seqmentində paylaşdıqları fotoları görəndən sonra bundan xəbər tutublar.

Yenə rəsmi olmayan məlumatlarda bildirildi ki, Azərbaycanı bu mübadilə proqramında 3 jurnalist təmsil edib. Hər üç jurnalist rusdilli KİV-in əməkdaşıdır. Maraqlıdır ki, birdənbirə həmin siyahıda adı keçməyən, əslən Şuşadan olan bir həmkarımız səfər "təəssüratlarından" bəhs edən yazı ilə çıxış etdi. Hamı elə bildi ki, həmin həmkarımız da səfərdə olub. Sən demə, həmkarımız səfərdə olmayıb, sadəcə, fantaziyalarını qələmə alıb. Bütün bu yanlışlıqlar, təbii ki, layihə ilə bağlı cəmiyyətə rəsmi qurumlar tərəfindən müfəssəl məlumatın verilməđiyindən yarana bilir. Əgər bu proqramın məqsədi xalqları sülhə hazırlamaqdırsa, niyə orada iştirak edən jurnalistlərlə bağlı ətraflı məlumat verilmir? Həmin jurnalist gördüklərini gəlib burada qələmə almayıb, adını anonim saxlayacaqsa, bunun nə faydası ola bilər? Bundan əlavə, hansı sülhə hazırlıqdan söhbət gedə bilər ki, təşkilatçılar öz jurnalistlərimizi cəmiyyətimizdən qorumaq istəyir?

Diqqət edək, Azərbaycan XİN proqramla bağlı qısa bir arayış verib: "ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin təşkilati dəstəyilə Azərbaycan və Ermənistan tərəfindən bu ilin 17-21 noyabr tarixlərində iki ölkənin KİV nümayəndələrinin səfər mübadiləsi təşkil olunub. Səfər çərçivəsində Azərbaycan jurnalistləri Ermənistanda, eləcə də Dağlıq Qarabağ bölgəsində, o cümlədən, Şuşa şəhərində olublar. Erməni jurnalistləri azərbaycanlı həmkarları, QHT nümayəndələri, akademik dairələr, həmçinin, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə görüşüblər. Azərbaycanda olarkən erməni jurnalistləri habelə müsəlman, xristian və yəhudi dini ziyarətgahlarına baş çəkiblər".

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva mediaya açıqlamasında deyib ki, Ermənistandan olan jurnalistlərin Bakıya səfər etməsi barədə onda məlumat yoxdur.

Jurnalistlərin adları və təmsil etdikləri informasiya vasitələrinin adları da məxfi saxlanır. Niyə?

*"...belə gizli saxlanan səfərlərin sülh prosesinə necə təsiri ola bilər?"*

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu proses əvvəlcədən anormal başlayıb: "Belə bir proqramın nəzərdə tutulduğu ilə bağlı söhbətlər gedirdi. O vaxt biz də fikirlərimizi bildirmişdik. Biz, təbii ki, bu layihə ilə bağlı ehtiyatlı davranırdıq. Demişdik ki, Azərbaycan dövləti məqsədəmüvafiq saydığı zamanda belə səfərlərin baş tutması mümkündür. Ancaq bir şərtlə ki, proses tam şəffaflıqla həyata keçirilsin. İndiki mərhələdə isə biz gördük ki, ictimai rəy çaşdırıldı. Bizim XİN-ə müraciət ünvanlandı ki, belə bir mübadilə proqramı nəzərdə tutulur? Nazirliyin bütün açıqlamalarını izləyirdim, hamısında deyilirdi ki, yox, belə bir layihə nəzərdə tutulmur. İndi isə açıqlama verirlər ki, proses XİN-in məlumatı daxilində baş verib. Mən bunu ictimai rəyə qarşı hörmətsizlik sayıram. Bu adamların gediş-gəlişi ictimai rəyə mənfi emosiyalar ötürəcəksə, deməli, həmin proqram təşkil edilməməli idi. XİN bilirdisə belə səfər var və həmin səfərdən hansısa faydalar gözlənir, onda zəhmət çəkib bu barədə açıqlama verməliydi. Bunu da etmədilər. İndi də jurnalistlər gəlib, heç bir yazıları, reportajları, müsahibələri ortada yoxdur. Niyə? Axı həmin həmkarlarımız ora özəl və ya turistik səfər etməyiblər. Bundan əlavə, belə gizli saxlanan səfərlərin sülh prosesinə necə təsiri ola bilər? Söhbət xalqlar arasında ictimai etimadın möhkəmləndirilməsindən gedirsə, lakin bu, sirr olaraq saxlanırsa, deməli, xalqı təmsil etmədikləri ilə bağlı bir təzad ortaya çıxır. Bu durumu anormal və ziyanlı sayıram. Düşünürəm ki, bundan sonra Azərbaycan XİN və ya hansısa başqa bir qurum bu cür səfərlərlə bağlı addım atarkən, ən azından, heç olmasa media cameəsində bir müzakirə aparmalıdır. Biz, məsələn, Mətbuat Şurasında təmsil olunuruq, amma xəbərimiz yoxdur. Mən hesab edirəm ki, bu səfər onu təşkil edənlərin öz əleyhinə işləyəcək. Buyurub bundan doğan sualları özləri cavablandırarlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, noyabrın 17-21-də Azərbaycan və Ermənistan tərəfindən iki ölkənin KİV nümayəndələrinin səfər mübadiləsi təşkil olunub. Sözügedən səfər ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin təşkilati dəstəyilə keçirilib.**

# Ermənistan mediası jurnalistlərin qarşılıqlı səfərlərini top-tüfənglə qarşılayır...

## **Elçin Mirzəbəyli:** *"Bu cür yanaşma ermənilərin xəbis niyyətindən xəbər verir"*



Xarici İşlər Nazirliyi Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayevanın sözlərinə görə, səfər çərçivəsində Azərbaycan jurnalistləri Ermənistanda, eləcə də Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, o cümlədən, Şuşa şəhərində olublar: "Erməni jurnalistləri azərbaycanlı həmkarları, QHT nümayəndələri, akademik dairələr, həmçinin, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə görüşüblər. Azərbaycanda olarkən erməni jurnalistləri habelə müsəlman, xristian və yəhudi dini ziyarətgahlarına baş çəkiblər".

Təbii ki, sözügedən səfərlər humanitar missiya daşıyır. Qarşılıqlı səfərlər o demək deyil ki, bu, münaqişənin həllini dərhal sürətləndirəcək. Ancaq qəribədir ki, bir sıra erməni mətbuat orqanları bundan bərk narahatdırlar. Müxtəlif vasitələrlə bu missiyanı qaralayırlar. Eyni zamanda, həmin səfərlərə kəskin tənqidi münasibət bəsləyərək müxtəlif böhtan xarakterli yanaşmalar ortaya qoyurlar.

Bəzi erməni KİV-i bunu dünyadakı ən qəribə "jurnalist mübadiləsi" kimi təqdim edib: "Adları açıqlanmayan erməni jurnalistlər Bakıya, azərbaycanlı jurnalistlər isə "Artsax"a səfər etdilər. Ermənistan və Azərbaycan cəmiyyətlərinin təmaslara və etimad qurmağa hazırlığının göstəricisi olduğu aksiya tərəflərin uzun müddət "etimad" xəttinə yaxın ola bilməyəcəyini nümayiş etdirdi".

*"Ümumiyyətlə, erməni mediasının əksər hallarda sözügedən səfərlər barəsində dezinformasiya xarakterli məlumatlar yaymasının şahidi oluruq"*

Maraqlıdır, erməni mediası sözügedən səfərlərdən niyə bu qədər narahatdır və qaralama kampaniyası aparır?

Məsələyə münasibət bildirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bu, ermənilərin xislətindən irəli gələn məsələdir: "Bu onu göstərir ki, ermənilər kompromisdə maraqlı deyil. Hər vasitə ilə bu kimi təşəbbüsləri qaralamağa çalışırlar. Xüsusən də Paşinyana qarşı müxalif mövqedən çıxış edən mətbuat orqanlarında bu özünü daha qabarıq şəkildə göstərir. Onlar, birmənalı olaraq, bu cür səfərlərin əleyhinə çıxış edirlər. Digər tərəfdən, ümumiyyətlə, erməni mediasının əksər hallarda sözügedən səfərlər barəsində dezinformasiya xarakterli məlumatlar yaymasının şahidi oluruq. Bu cür yanaşma ermənilərin xəbis niyyətindən xəbər verir. Şəxsən mən özüm sözügedən səfərlərin tərəfdarı deyiləm. Hesab edirəm ki, Azərbaycan əraziləri işğaldan azad edilmədən Ermənistan jurnalistləri ilə hər hansı təmas prosesə müsbət təsir göstərməyəcək. Bu baxımdan düşünürəm ki, belə məsələlərdə bir qədər diqqətli olmaq lazımdır".

***Vidadi ORDAHALLI***

# Jurnalistlərin qarşılıqlı səfərləri barədə Ermənistan XİN-in açıqlaması - xalqları sülhə hazırlamaq prosesinə qarşı aşkar təxribat...

**Məlum olduğu kimi, Azərbaycan və Ermənistanı təmsil edən bir neçə jurnalistin hər iki ölkəyə qarşılıqlı səfərləri reallaşıb. Ermənistan Xarici İşlər Nazirliyi bu səfəri özünəməxsus tərzdə təqdim edib və qondarma qurumu prosesdə iştirak edən müstəqil tərəf kimi qələmə verib.**

Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan jurnalistlərin mübadilə proqramına dair sualına cavab verərkən bildirib ki, noyabrın 17-dən 21-dək jurnalist qruplarının qarşılıqlı səfərləri olub: "Ermənistan və "Artsax" KİV-nin nümayəndələri Azərbaycanı, Azərbaycan KİV-nin nümayəndələri isə Ermənistan və "Artsax"ı ziyarət etdilər. Proqram ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin koordinasiyası və Ermənistan, "Artsax" və Azərbaycanın müvafiq qurumlarının iştirakı ilə həyata keçirilib". Göründüyü kimi, Naqdalyan "Artsax" ifadəsini hər fürsət düşəndə vurğulayır ki, prosesdə iki yox, üç tərəfin iştirak etməsinə dair təəssürat yarada bilsin. Ermənistan rəsmilərinin bu mövqeyini növbəti təxribat cəhdi kimi qiymətləndirmək olarmı?

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev sosial şəbəkədəki hesabında bu məsələyə münasibət bildirib. Onun sözlərinə görə, qarşılıqlı səfərlər etmiş Azərbaycan və Ermənistan jurnalistlərinin missiyası əleyhinə Ermənistan hakimiyyətinin təxribatı dərhal özünü göstərdi: "Jurnalistlərin Bakıya və İrəvana səfərlərinin yekunları barədə Ermənistan XİN-in rəsmisi Anna Naqdalyanın yaydığı bəyanatı, sözün həqiqi mənasında, təxribat adlandırmaq olar. Əvvəla ona görə ki, Naqdalyan bu səfərlərin ATƏT sədrinin şəxsi nümayəndəsinin koordinasiyası ilə Azərbaycan, Ermənistan və "Artsax"ın XİN rəhbərləri tərəfindən hazırlandığını bildirib. Beləliklə, "Artsax" adlı qondarma qurum Azərbaycan və Ermənistanla bərabər tərəf kimi təqdim olunub. Qətiyyən yolverilməz yanaşmadır. İkincisi, Naqdalyan bəyan edib ki, Azərbaycan jurnalistləri Ermənistanda və "Artsax"da, Ermənistan və "Artsax" jurnalistləri isə Azərbaycanda olublar. Yenə həmin yolverilməz yanaşma. Qondarma "Artsax" Azərbaycan və Ermənistana bərabər tərəf kimi təqdim edilib. Yəqin ki, Xarici İşlər Nazirliyimiz ermənilərin bu informasiya təxribatının arxasındakı tam aşkar və məkrli niyyəti ifşa edən sərt cavab bəyanatı yayacaq, hətta ATƏT sədrinin şəxsi nümayəndəsini bu təxribata reaksiya verməyə çağıracaq".



**Aydın Quliyev:** *"Yəqin ki, Xarici İşlər Nazirliyimiz ermənilərin bu informasiya təxribatının arxasındakı tam aşkar və məkrli niyyəti ifşa edən sərt cavab bəyanatı yayacaq"*

**Hatəm Cabbarlı:** *"Bir daha sübut olundu ki, erməni təbliğat maşını bu kimi humanitar məsələləri də istismar edərək öz xeyirlərinə istifadə etməyə çalışır"*

Siyasi elmlər doktoru Hatəm Cabbarlı qəzetimizə bildirdi ki, jurnalistlərin qarşılıqlı səfərləri baş tutandan sonra bu məsələ hər iki ölkənin mətbuatında geniş şərh edilir: "Biz mətbuatdan oxuyuruq ki, səfərin təşkilatçısı ATƏT sədrinin şəxsi nümayəndəsi olub. Əvvəla bu qarşılıqlı səfərlərin baş verdiyi zamana xüsusi diqqət yetirmək lazımdır. Nikol Paşinyan hakimiyyətə gələndən sonra yalnız sülhə mane olan, danışıqlar prosesini pozan bəyanatlar səsləndirir. Belə olan təqdirdə, hansı etimad mühitinin formalaşdırılmasından söhbət gedə bilər? Proqramın daha çox tərəfləri sülhə hazırlamaq məqsədilə həyata keçirildiyini bildirirlər. Sülhə hazırlamaq deyəndə nə başa düşüldüyünü anlamıram. Çünki, faktiki olaraq, danışıqlar prosesi dalana dirənib. Belə bir şəraitdə xalqların sülhə hazırlanması mümkün ola bilərmi? Proqramın mahiyyəti ilə bağlı təqdimatlarda bildirilir ki, ATƏT-in şəxsi nümayəndəsinin bilavasitə razılığı ilə, Ermənistan və Azərbaycanın iştirakı ilə hazırlanaraq həyata keçirilib. Bunun özü də olduqca maraqlıdır. Ermənistan XİN rəsmisi isə öz bəyanatı ilə məsələnin mahiyyətinə təhrif etməyə çalışır. Biz burada psixoloji müharibənin tərkib elementlərini görürük. Çünki rəsmi sənəddə qondarma qurumun adı keçmir. Yalnız Azərbaycan və Ermənistanın adı hallanır. Proses baş tutandan sonra Ermənistan rəsmi qurumunun verdiyi bəyanatı biz özlərinə yönəlik təbliğat, ümumi anlamda isə təxribat xarakterli kimi qiymətləndirməliyik. Məqsəd xalqları sülhə hazırlamaqdırsa, bu proses niyə gizli keçirilir? Jurnalistlərin kimlərlə təmasda olduğu ilə bağlı ətraflı məlumat verilmir. Hər iki ölkənin rəsmi qurumları görüş baş tutana qədər heç bir açıqlama verməyib. Yalnız görüşdən sonra kiçik açıqlama ilə kifayətləniblər. Əslində, Ermənistan XİN-in verdiyi bəyanatdan belə başa düşülür ki, onlar hələ də psixoloji müharibəni davam etdirməkdə daha maraqlıdırlar, nəinki xalqları sülhə hazırlamaqda. Biz bilirik ki, səfərlə bağlı rəsmi sənədlərin heç birində "Artsax" adına rast gəlinmir.

Bir daha sübut olunur ki, Ermənistan bu prosesdə də səmimi deyil. Belə etimadla heç bir nəticə əldə oluna bilməz. Çünki hər iki ölkənin ictimai rəyindən gizlin saxlanan prosesdən biz yalnız görüş baş tutandan sonra xəbər tuturuq. Belə proseslərdə hər iki ölkənin XİN-i ətraflı məlumat verməliydi. Bir daha sübut olundu ki, erməni təbliğat maşını bu kimi humanitar məsələləri də istismar edib, öz xeyirlərinə istifadə etməyə çalışır".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli İnsanov nələrə ümid edərək partiya yaratdı...

**Sabiq səhiyyə naziri Əli İnsanov yeni partiya yaratdığını elan edib. Əli İnsanov özünə yeni açdığı "Facebook" səhifəsindən bu məlumatı paylaşıb: "Bu gün, 24 noyabr 2019-cu ildə siyasi həmfikirlərimlə birlikdə toplantı keçirdik və yaratmaq istədiyimiz Haqq Ədalət Partiyasının təşkilat komitəsi barədə müzakirə apardıq.**



## *Rasim Quliyev: "Bunlar gedən qatardan düşüb qalmış insanlardır"*

Biz təşkilat komitəsinin üzvlərinin 15 nəfərdən ibarət olması barədə qərar qəbul etdik.

Səsvermə yolu ilə yekdilliklə Əli İnsanov Təşkilat Komitəsinin sədri, Rəşad Abbaslı isə katibi seçildilər.

Təşkilat komitəsinin üzvləri aşağıdakılardan ibarətdir:

1) Əli İnsanov - sədr.

2) İsfəndiyar Vahabzadə - Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri, filologiya elmləri doktoru, professor, Moldava Respublikasının Milli Elmlər Akademiyasının həqiqi üzvü - akademik.

3) Qalibə Budaqova - Bakı Dövlət Universitetinin sabiq əməkdaşı, Bakı şəhəri 23 saylı orta məktəbin sabiq direktoru, Azərbaycan Respublikası şəhid Milli Qəhrəmanı Tahir Həsənovun anası, Azərbaycan Milli Qəhrəman Ailələrinin Sosial Müdafiəsi İctimai Birliyinin sədri.

4) Mirədalət Talışxanov - hüquqşünas, Masallı Rayon Məhkəməsinin sabiq sədri, Azərbaycan Respublikası Baş Prokurorunun sabiq köməkçisi.

5) Eyvaz Əliyev - Yeni Azərbaycan Partiyasının Beyləqan rayon təşkilatının sabiq sədri, Beyləqan rayon icra başçısının sabiq müavini.

6) Oruc Muradov - Ukrayna Respublikası Xarkov şəhərində yaşayır, iqtisadçı, sahibkar, 1988-1990-cı illərdə xalq hərəkatının fəal üzvlərindən biri.

7) İlqar Quliyev - ekoloq, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sabiq əməkdaşı, Azərbaycan Respublikaçılar Partiyasının Sumqayıt şəhər təşkilatının sədri.

8) Babək Adıgözəlov - hüquqşünas,Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının idarə heyətinin sabiq üzvü.

9) Yalçın Qəhrəmanoğlu - Ukrayna Respublikası Kiyev şəhərində yaşayır, iqtisadçı-mühəndis, sahibkar, Azərbaycanda Demokratik Qüvvələrin Milli Şurasının üzvü.

10) Əfqan Sadıqlı - jurnalist, "Azel tv"nin rəhbəri.

11) Zaur Bayramoğlu - qazi.

12) Murad Muradov - ictimai fəal.

13) Rəşad Abbaslı - mühəndis, təşkilat komitəsinin katibi.

14) Fərrux Binətzadə - hüquqşünas, keçmiş polis zabiti.

15) Murad Quliyev - iqtisadçı, hüquqşünas, Amerika Birləşmiş Ştatlarında tədqiqatçı.

İclasda partiyanın təsis konfransına qədər olan dövrdə görüləcək işlər barədə geniş müzakirə apardıq, partiyanın nizamnaməsi və proqramının yazılıb başa çatdırılması üçün tapşırıqlar verildi".

Bu təqdimatdan sonra Ə.İnsanovun yaratdığı partiya ilə bağlı sosial şəbəkələrdə maraqlı reaksiyalar müşahidə olunub. Demək olar ki, çox böyük əksəriyyət partiyanın adını və ora toplaşanların kimliyini ironik tərzdə qarşılayıb. Doğrudan da həmin siyahıda Bəxtiyar Vahabzadənin keçmiş səfir oğlundan başqa, hansısa tanınmış personaya rast gəlmək mümkün deyil. Ən maraqlısı isə budur ki, daim Qərbi azərbaycanlıları öz ətrafında birləşdirə biləcəyilə bağlı manipulyasiyalar edən sabiq nazirin bu vədi də boşa çıxıb. Çünki təqdim edilən "vitrində" biz həmin qəbildən olan şəxslərə rast gələ bilmirik. Ə.İnsanovun partiya quruculuğundakı ilk cəhdini nə dərəcədə uğurlu saymaq olar?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlar mərkəz olaraq bu istiqamətdə daha ətraflı araşdırmalar aparırlar: "Müxtəlif prizmalardan apardığımız araşdırmalarla bağlı gələcəyimiz qənaətimizi media ilə bölüşəcəyik. Hələlik isə bununla bağlı ilkin təəssüratlarımı bildirə bilərəm. Yaradılan yeni partiya ideoloji əsasa söykənmədiyi üçün, heç bir uğurlu gələcək vəd etmir. İstər Ə.İnsanov, istərsə də onun ətrafındakı adamları bir maraq birləşdirir, o da qisasçılıqdır. Təqdimatdan da görünür ki, əksəriyyəti cəmiyyətdə ciddi çəkiyə malik olmayan, orta məmur kontingentini təmsil etmiş sabiq məmurlardır. Görünür, onların hamısının nə vaxtsa bu iqtidarla maraqları kəsişib, ona görə də bir yerə toplaşıblar. Bilirsiniz ki, YAP və onun təmsil etdiyi hakimiyyət uzun müddətdir dövlətçilik yolunda sabitqədəm hərəkət edir. Bunlar isə gedən qatardan düşüb qalmış insanlardır. Həyat inkişaf edir. İqtidar qatarı öz trayektoriyası ilə hərəkət edir. Ə.İnsanovun ətrafındakı insanlar isə hansısa dayanacaqda düşüb qalıblar. Onların hazırkı cəmiyyətdə önə çıxması üçün nə münbit şərait, nə də potensialları var. Yəqin ki, partiya tam formalaşandan sonra biz az sayda müxtəlif yeni adamları orada görə biləcəyik və onda proseslə bağlı ətraflı rəyimizi təqdim edəcəyik. Partiyanın adını nə istəyirlər qoysunlar. Əsas ad deyil, əsas onun mahiyyəti və kimlərin ora toplaşmasıdır. Onların güvənəcəyi, söykənəcəyi sosial baza da yoxdur. İlkin təqdimatdan görünür ki, onların heç beynəlxalq aləm tərəfindən də qəbul olunmaq perspektivləri yoxdur.

*"Onların güvənəcəyi, söykənəcəyi sosial baza da yoxdur"*

Hansı tərəfdən baxsaq, burada bir perspektiv görmürük. Qisas üzərində qurulan təbliğat yalnız sabun köpüyü ola bilər. Xüsusilə də quruma Ə.İnsanovun rəhbərlik etməsi onu indidən uçuruma yuvarladıb. Ambisiz və qisasçılıq adda bir ideologiya yoxdur ki, onun ətrafında siyasi fəaliyyət aparmaq mümkün olsun. Azərbaycanda olan passiv, yalnız sədr və portfelindən ibarət partiyalardan birinin də sayı artmış olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Avropa Koordinasiya Mərkəzi Müsavat Partiyasının strukturu sayılırsa...

**Müsavat Partiyasında qalmaqal səngimək bilmir. Müsavat başqanının sabiq müavini Tofiq Yaqublu bəyan edib ki, Avropa Koordinasiya Mərkəzi Müsavatın strukturudur, partiya rəhbərliyinin təşkilatçılığı və tapşırığı əsasında yaradılıb:**




## *Məhərrəm Zülfüqarlı: "AKM-in harada və necə qeydiyyatdan keçməsinin məsələyə dəxli yoxdur"*

"Nizamnaməsi partiyada hazırlanıb və təşkilatın yaradılması prosesi Divanın nəzarətində olub. Bu illər ərzində Bakıdan idarə olunub. Sadəcə olaraq, rəsmi qeydiyyatdan keçən zaman Almaniya qanunlarının onu partiyanın Avropa strukturu kimi qeydə alınmasına imkan vermədiyinə görə, QHT kimi qeydiyyatdan keçirməyə məcbur olublar. İndi də bu QHT faktorundan yapışaraq, AKM-in Müsavat partiyasına aidiyyəti olmadığını deyirlər. Sanki biri pulunu verib ev alıb, uzun müddətdir ki, içində yaşayır və hansı səbəbdənsə onu öz adına rəsmiləşdirə bilməyib və yaxın qohumunun adına yazdırıb. Ortaya problem çıxanda evin ona aid olmadığını deyir".

Almaniyada Müsavatın mühacir biznesinin ifşasından sonra partiya rəhbərliyi məsuliyyəti öz üzərindən atmaq üçün yollar axtarışındadır. Bu məqsədlə partiya başqanı Arif Hacılı şəbəkənin əsas qolu hesab olunan AKM-dən imtina etməyə çalışır. İddia edir ki, AKM Avropada qeydiyyatdan keçmiş təşkilatdır və onun Müsavata bağlılığı yoxdur. O zaman ortaya bir neçə sual çıxır. Əgər təşkilatın Müsavatla bağlılığı yoxdursa, necə olur ki, Arif Hacılı tez-tez onların təşkil etdiyi tədbirlərə qatılır və bu təşkilat vasitəsilə Avropada partiya vəsiqələri paylanılır? Bütün hallarda, AKM Müsavat Partiyasının strukturu sayılırmı?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, AKM Müsavat Partiyasının strukturudur: "O üzdən, bunu inkar etmək mümkün deyil. Burada anlaşılmayan məsələ yoxdur. AKM-in harada və necə qeydiyyatdan keçməsinin məsələyə dəxli yoxdur. AKM Müsavatın Avropa bürosudur və ən başlıcası, partiyanın strukturu sayılır. Saxta arayışlara görə kimlər hansı işləri görübsə, buna görə cəzalanmalıdır. AKM-in Almaniyada QHT kimi qeydiyyatdan keçməsi nəyisə dəyişmir. Ona görə də Müsavat Partiyası funksionerlərinin özlərini qorumaq üçün səsləndirdikləri arqumentlərin heç bir əsası yoxdur.

*"Koordinasiya Mərkəzi Müsavatın Avropa bürosudur və ən başlıcası, partiyanın strukturu sayılır"*

Baş verənlərə görə Müsavat Partiyası həm hüquqi, həm də siyasi məsuliyyət daşıyır. Ona görə də kim bu cinayətləri edibsə, onlar cəzalandırılsın və partiyadan xaric edilsin. Yoxsa, bu cür mövqe qoymaqla məsuliyyətdən qaçmaq olmaz. Fikrimcə, ciddi partiya bütün bu məsələlərə konkret aydınlıq gətirməlidir. Bu cür mövqe sərgiləməklə nəyəsə nail olmaq mümkün deyil".

***Vidadi ORDAHALLI***

**Müsavat Partiyası ciddi cəhdlə mühacirlərə verilmiş arayışları gizlətməyə çalışır. Qanunsuz yolla satılmış sənədləri ictimaiyyətə açıqlamaq istəməyən partiya rəhbərliyi Divan üzvlərinin iradlarını qulaqardına vurur, sanki heç nə olmamış kimi davranır.**




# Müsavat Partiyası mühacirlərə verdiyi arayışları niyə açıqlamır...

## Vüqar Rəhimzadə: *"Partiya rəhbərliyi arayış məsələsində yol verdiyi saxtakarlıqları gizlətməkdən ötrü..."*

Bu arada Müsavat Partiyasının başqanlığına namizəd olmuş partiya üzvü Tofiq Yaqublu hazırkı başqan Arif Hacılı və partiyanın icra aparatının rəhbəri Gülağa Aslanlını mühacirlərə saxta arayış verilməsi ilə bağlı ittiham edib. O, sözügedən məsələ ilə bağlı bildirib ki, 2016-cı ildən indiyədək partiya rəhbərliyindən mühacirlərə verilmiş arayışlarla tanış olmaq üçün imkan yaradılmasını tələb edib. Amma buna şərait yaradılmayıb: "Arif Hacılı canlı yayımların birində dedi ki, partiya üzvü yazılı ərizə ilə müraciət etsə, ona həmin arayışlarla tanış olmaq imkanı yaradılacaq. Bundan dərhal sonra mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlının adına ərizə yazdım, lakin heç xeyri olmadı və bildirilən 197 arayışla tanış olmaq imkanı yaradılmadı. Divan üzvü, başqan müavini olmağım da yetərli olmadı. Baxın, hüququm ola-ola və partiyanın mənə həmin şəraiti yaratmasına borclu olmasına baxmayaraq, 3 il ərzində arayışları mənə göstərmədilər, amma canlı yayımda səsləndirdiyim fikirdən yapışaraq, ertəsi günü məndə olan sübutları onlara təqdim etməyi tələb etdilər. Bilə-bilə ki, mənim həmin sübutu lazım bildiyim qədər özümdə saxlamaq və mənbəyini aşkarlamamaq hüququm var. Heç narahat olmayın, özüm münasib bildiyim şəkildə və şəraitdə nə lazımdırsa, açıqlayacağam. Siz hələ ortada olan suallara cavab verin".

Partiyanın icra aparatının rəhbəri Gülağa Aslanlı isə bunu guya onların təhlükəsizliyi ilə bağlı olduğuna görə açıqlamadıqlarını deyib: "Arayış verilən şəxslərin açıqlanmasını, onların ailə üzvlərinin təzyiqə məruz qala bilməsi və bir çox digər səbəbdən ictimailəşdirmək fikrimin olmadığını dəfələrlə söyləmişəm".

*"Arayışların kimlərə verildiyi açıqlansa, o zaman onların çoxsaylı bədnam əməli faktlarla ifşa olunacaq"*

Maraqlıdır, partiya mühacirlərə verdiyi arayışları niyə açıqlamır? Burada gizli nə var ki, Müsavat Partiyasının rəhbərliyi hər vəchlə bundan yayınır?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, Müsavat Partiyası rəhbərliyi arayış məsələsində yol verdiyi saxtakarlıqları gizlətməkdən ötrü bu barədə məlumatları gizlədir: "Səbəb əsasən bununla bağlıdır. Arayışların kimlərə verilməsi açıqlansa, o zaman Müsavat funksionerləri dələduzluq maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Məsələ ondadır ki, arayışların kimlərə verildiyi açıqlansa, o zaman onların çoxsaylı bədnam əməli faktlarla ifşa olunacaq. Ona görə də hazırkı Müsavat Partiyası rəhbərliyi hər vasitə ilə bundan yayınır. Çünki onlar həmin arayışları, ən aşağısı, 3 avro məbləğində satıblar. Nəticədə bir çox insanı pis vəziyyətdə qoyublar. Elə insanlar var ki, bu işdə günahsızdırlar. Elələri var ki, birbaşa sözügedən saxtakarlıqlara rəvac veriblər. Gedənlərin bir çoxu saxta arayışlar hesabına xaricdə məskunlaşıblar. Bir sözlə, saxta arayışlarla bağlı dələduzluq əməlləri ortadadır. Hesab edirəm ki, bununla bağlı cinayət işi açılmalıdır. Hüquqi müstəvidə bu məsələlər araşdırılmalı və günahkarlar layiqli cəzalarını almalıdırlar. Ona görə də bunun guya arayış alanların təhlükəsizliyi ilə bağlı olduğu barədə deyilənlərin heç bir əsası yoxdur".

***Vidadi ORDAHALLI***

---

**Bugün hərtərəfli böhran yaşayan Ermənistanda ərzaq, qida məhsullarının, dərman vasitələrinin qiyməti həddindən artıq bahadır. Bu məhsulların qiyməti get-gedə daha da bahalaşır. Ermənistan mətbuatının yazdığına görə, Ermənistanda növbəti bahalaşma gözlənir.**



# Ermənistanda yanvardan ərzaq və qidaların dəhşətli bahalaşması qaçılmaz oldu, Azərbaycanda isə...

## Samir Əliyev: *"Azərbaycan bazar iqtisadiyyatına keçib, amma bir çox sahədə qiymətlər dövlət tərəfindən tənzimlənir"*

"Joxovurd" qəzeti rəsmi mənbələrə istinadən yazır ki, 2020-ci il yanvarın 1-dən ölkədə 699 adda məhsulun qiyməti bahalaşacaq. Qeyd edilənə görə, bura ət, bitki yağı, taxıl, gübrə, dərman preparatları və s. məhsullar daxildir. İqtisadçı Qaqik Markaryan sözügedən nəşrə bildirib ki, hökumət sosial partlayışın qarşısını almaq üçün əhaliyə kompensasiya verməyi nəzərdən keçirir: "Minimum əməkhaqqının artırılması da qiymətin bahalaşması amillərindəndir" - deyə erməni ekspert bildirib.

Ermənistanda qida məhsullarının, ərzağın, dərman preparatlarının, kənd təsərrüfatına aid dərman vasitələrinin qiymətinin bu şəkildə qaldırılması erməni cəmiyyətini səfalətə sürükləyir. Düşmən ölkədən fərqli olaraq, Azərbaycanda isə bazar qiymətləri dövlət tərəfindən tənzimlənir və qiymətlərin optimallaşdırılması istiqamətində siyasət yürüdülür. Azərbaycan dövləti qiymətlərin ucuzlaşmasına çalışır və buna nail olur.

Tanınmış iqtisadçı-ekspert Samir Əliyev bizimlə söhbətində bildirdi ki, Ermənistanda qiymətlərin günü-gündən bahalaşması və 2020-ci ilin ilk günündən isə daha da artması səbəbsiz deyil. Ermənistanın özünün təbii resurslarının olmadığını vurğulayan S.Əliyev hesab edir ki, bu ölkəyə bir sıra məhsullar xaricdən idxal edlir, bu da bahalaşmaya səbəb olur: "Ermənistanda 700-ə yaxın məhsulun daha da bahalaşacağının bir sıra səbəbləri var. Bahalaşma sahəsində Azərbaycanla Ermənistanı müqayisə etmək olmaz. Çünki Azərbaycanda vəziyyət tamam başqadır. Əvvəla Ermənistan neft ölkəsi deyil, bu ölkənin neft gəlirləri yoxdur. Onların büdcəsinin əhəmiyyətli hissəsi xarici diasporun göndərdiyi ianələr, bir hissəsi isə Ermənistandan kənarda işləyən ermənilər tərəfindən göndərilən vəsait hesabına formalaşıb. Ermənistanın büdcəsi vergi və gömrük gəlirlərindən başqa, həm də bu dediyim mənbələrdən maliyyələşir. Azərbaycanda isə vəziyyət fərqlidir. Bizdə neft var, neft də digər mənbələri üstələyir. Azərbaycanın dövlət büdcəsinin 60-70 faizi neftdən gəlir. Bir də ki, bizim iqtisadiyyatımız böyükdür, əhalimiz çoxdur, gəlirlərimiz artıqdır. Qiymət artımına gəlincə, bu sahədə Azərbaycanla Ermənistanın fərqi çoxdur. Baxmayaraq ki, Azərbaycan bazar iqtisadiyyatına keçib, amma bir çox sahədə qiymətlər dövlət tərəfindən tənzimlənir, kommunal sektorda və s. Ermənistanda qiymətlər dövlət tərəfindən tənzimlənmir. Orada kommunal sektorun bir hissəsi özəlləşib və bu sektorda əcnəbilər işləyirlər. Azərbaycanda isə bu sahə dövlətindir və dövlət də qiymətlərin qalxmasına imkan vermir. Amma qiymətlərə dövlət nəzarəti olmasa, bizdə də qiymətlər bir neçə dəfə qalxardı. Azərbaycanda dövlətin həyata keçirdiyi siyasət budur ki, ölkədə heç bir sahədə qiymət artımı baş verməsin, amma Ermənistanda dövlət bu sahədə işlər görmür" - deyə bildirən S.Əliyev hesab edir ki, Azərbaycan dövləti qiymətlərin optimallaşdırılmasına, ərzaq və digər məhsulların ucuzlaşmasına yönəlik addımlar atır, sahibkarlara çağırışlar edir.

*"...xarici bazarda həmin məhsulların qiyməti qalxan kimi, Ermənistanda da qiymətlər bir neçə qat qalxır"*

S.Əliyev, həmçinin, vurğuladı ki, Azərbaycanda daşınmaz əmlakın qiyməti baha olsa da, ərzaq və digər məhsulların qiyməti Ermənistanla müqayisədə bir neçə dəfə azdır. "Ermənistanın istehlak bazarında bir sıra məhsullar var ki, onların xaricdən asılılığı var, xarici bazarda həmin məhsulların qiyməti qalxan kimi, Ermənistanda da qiymətlər bir neçə qat qalxır. Dövlət qiymətləri tam tənzimləmədiyi üçün, xaricdə qiymətlər qalxan kimi, Ermənistanda da qalxır. Yaxud da ki, xarici valyuta bahalaşan kimi, onların pulu ucuzlaşır, ucuzlaşan kimi də qiymətlər bahalaşır" - deyə S.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***

**Rusiyanın gələn ilin ortasında tam istifadəyə verməyə hazırlaşdığı "Şimal axını-2" qaz kəməri ətrafında yenidən qalmaqal yaranmaqdadır. Belə ki, ABŞ Konqresi reallaşmasına az bir müddət qalan bu kəmərin çəkilişinə mane olmaq üçün növbəti həmləyə hazırlaşır.**

# ABŞ Rusiyanın Avropaya böyük qaz nəqli xəttinə qarşı sanksiyaları 2020-ci ilin müdafiə büdcəsinə daxil etdi...

Konqres "Şimal axını-2" qaz kəmərinə qarşı sanksiyaları ölkənin 2020-ci il üçün müdafiə büdcəsinə daxil etməyi planlaşdırır. Senatın Xarici İşlər Komitəsinin rəhbəri Cim Riş faktı təsdiq edib.

Riş qeyd edib ki, sanksiyalar qaz kəmərində işləyən tikinti şirkətlərini layihəni tərk etməyə məcbur edə bilər: "Bu onlara çox baha başa gələcək. Düşünürəm ki, bu sanksiyalar keçərsə, şirkətlər bağlanar və Rusiya, əgər bunu edə bilsə, layihəni həyata keçirmək üçün başqa bir yol axtarmalı olacaq". Respublikaçılar Partiyasından olan senator Ted Kruz da bildirir ki, ABŞ-ın sanksiyaları "Şimal axını-2" kəmərinin istismara verilməsinin qarşısını almaq gücündədir. O, boru kəmərinin Rusiyaya milyardlarla dollar xeyir, Avropa ölkələrinə isə zərər verəcəyini bildirib: "O bütün Avropaya zərər vuraraq, regionu Rusiya enerjisindən daha da asılı edəcək. Məncə, ən yaxşısı enerjini şantaj vasitəsi kimi istifadə etməyəcək mənbələrdən almaqdır. Avropa ABŞ-dan qaz alsa, bu, amerikalılar üçün yeni iş yerlərinin yaradılmasına da kömək edəcək". Bu problemin həlli üçün Kruz Ağ Evin CAATSA qanunu çərçivəsində sanksiyalar tətbiqini təklif edib. Qeyd edək ki, CAATSA qanunu 2017-ci ildə qəbul edilib. Qanuna əsasən, Rusiya hərbi sənaye komplekslərinə sanksiyalar tətbiq edilib.

Hesab edilir ki, Senat müvafiq qanun qəbul edəcəyi təqdirdə, gələn ildən "Şimal axını-2"yə qarşı yeni sanksiyalar işə düşəcək. Hazırda bu kəmərin inşası Danimarkaya görə ləngiyir. Xatırladaq ki, rəsmi Kopenhagen Danimarkanın ərazi sularında boru kəmərinin çəkilməsinə icazə verməyib. Odur ki, Rusiyadan Almaniyaya qaz kəmərinin vaxtında çəkilərək istifadəyə verilməsi hələlik sual altındadır. Halbuki, bundan əvvəl Rusiya baş nazirinin müavini Dmitri Kozak jurnalistlərə "Şimal axını-2" qaz boru kəmərinin 2020-ci ilin ortalarında işə başlayacağını bildirmişdi. Amma hazırda iş Danimarkaya qalıb. Lakin bu ölkə cavab verməyə hələlik tələsmir. Kopenhagenin cavabı nə qədər uzadacağı isə hələlik məlum deyil. Eyni zamanda, belə icazənin verilməməsi üçün ABŞ-dan da Danimarkaya təzyiqlər artır.

Belə bir vaxtda müşahidə olunan hallardan biri də budur ki, ABŞ Azərbaycan qazının Avropaya mümkün qədər tez çatmasını istəyir. Bu məsələ energetika naziri Pərviz Şahbazovun ABŞ-a səfəri çərçivəsində də xüsusi diqqət mərkəzində yer alıb. Burada nazir nəhəng infrastruktur və enerji təhlükəsizliyi layihəsi olan "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsində ABŞ-ın davamlı dəstəyinin təqdirəlayiq olduğunu bildirib. Prezident Donald Tramp tərəfindən Birləşmiş Ştatların enerji katibi vəzifəsinə namizədliyi irəli sürülmüş Dan Brullet də "Əsrin müqaviləsi" imzalanan vaxtdan indiyə kimi Azərbaycanın Xəzəri dünyaya inteqrasiya edən çoxsaylı qlobal enerji təşəbbüslərinin ölkəsində yüksək qiymətləndirildiyini vurğulayıb. "Cənub Qaz Dəhlizi"nin enerji təhlükəsizliyində mühüm rolunu vurğulayan ABŞ rəsmisi ölkəsinin, bu layihə ilə yanaşı, Azərbaycanın islahat xarakterli yeni enerji siyasəti kursu ilə də əlaqəli mümkün dəstəyini və köməyini diqqətə çatdırıb.

ABŞ-ın enerji nazirinin müavini Mark Menezes ABŞ və Azərbaycanın enerji sektorundakı əlaqələrinin dünya bazarındakı əhəmiyyətindən bəhs edib: "Enerji təhlükəsizliyi iqtisadi rifahı və milli təhlükəsizliyi təmin edir və bu prioritet məsələdir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan ABŞ-ın regionda vacib tərəfdaşına çevrilib, bu əlaqələrin daha da genişləndirilməsini arzu edirik. Azərbaycan etibarlı tərəfdaşdır, bizim və bütün dünya üçün vacib ölkədir". ABŞ dövlət katibinin enerji resursları üzrə köməkçisi Frensis Fannon da qeyd edib ki, enerji siyasi sabitliyin təməlidir və ona görə də Birləşmiş Ştatların siyasətinin vacib bir hissəsidir. Diplomat "Əsrin müqaviləsi"nin Azərbaycanın və tərəfdaş ölkələrin iqtisadiyyatını transformasiya etdiyini bildirərək, ABŞ-ın bundan sonra da Azərbaycanın enerji layihələrinə dəstək verəcəyini bildirib.




Xatırladaq ki, Avropanın özündə də "Şimal axını-2" ilə bağlı ziddiyyətlər mövcuddur. Məsələn, Avropa Komissiyasının sədri Ursula fon der Layen "Şimal axını-2"nin həm iqtisadi, həm də siyasi miqyasının olduğunu deyir. O, indiki halda bu layihənin reallaşmasını Avropa üçün təhdid sayır: "Rusiya bizim qonşumuzdur və bu həmişə belə qalacaq. Lakin Kreml zəifliyi bağışlamır. Buna görə də, fikrimcə, biz güc mövqeyindən çıxış edərək dialoqu davam etdirə biləcəyimizi qarşı tərəfin diqqətinə çatdırmalıyıq. Tətbiq olunan sankisyalar Rusiyanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozması nəticəsində ortaya çıxdı. Ona görə də situasiyanın yaxşılaşması Rusiyanın özündən asılıdır". Amma Avstriyanın Rusiyadakı keçmiş səfiri Fridrix Bauer bildirir ki, "Şimal axını-2" layihəsindən imtina Avropa Birliyi ölkələrinə baha başa gələcək: "Rusiyadan qaz tədarükü Avropanın ABŞ-dan alacağından daha sərfəlidir. Amerika qazı üçün geniş infrastruktur qurulmalıdır. Rusiya qazı isə daha ucuz və daha təmizdir". Hazırda Avropa ölkələrində "Şimal axını-2" ilə bağlı ziddiyyətlər davam edir. Amma ABŞ kimi Avropa da Azərbaycan qazının idxalında vahid mövqedən çıxış edir. Avropa "Cənub Qaz Dəhlizi"nin reallaşmasının qitənin enerji təhlükəsizlyinin təmin edilməsində mühüm rol oynayacağını ən yüksək səviyyədə bəyan edir. İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio bu xüsusda bildirir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfələr verir. O, iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün istər Avropanın, istərsə də İtaliyanın enerji təhlükəsizliyinə töhfə olacaq "Cənub Qaz Dəhlizi" və onun tərkib hissəsi olan TAP boru kəmərinin əhəmiyyətini vurğulayıb. Nazir boru kəmərinin tikintisinin razılaşdırılmış qrafik üzrə başa çatdırılmasının vacibliyini də bəyan edib. Eyni mövqeyə digər Avropa rəsmilərinin açıqlamalarında da rast gəlmək olar.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Moskvanın təzyiq kartlarını işə salması Qarabağ münaqişəsinin həllini tezləşdirəcək

**Cənubi Qafqazda hələ də böyük təsir gücünə malik Rusiyanın regionda indi əsas tərəfdaş qismində Azərbaycanı görməsi və ölkəmizlə işbirliyini genişləndirməsi Ermənistanda böyük təşvişlə izlənir. Burada hesab edilir ki, Rusiya tədricən Ermənistanın arxasından çəkilərək onu güclü Azərbaycan qarşısında yalnız qoyur.**

Bu şəraitdə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini daha qısa zaman kəsiyində öz maraqları çərçivəsində həll edə biləcəyi də indi ermənilər üçün böyük qorxu mənbəyinə çevrilib.

Digər tərəfdən düşmən ölkədə daha bir narahatlıq predmeti Moskvada İrəvana qarşı sərgilənən və sərt xarakter üzərində köklənən siyasətdir. Ermənistanda bu xüsusda indi belə bir fikir hakim olmağa başlayıb ki, Rusiya tədricən təzyiq siyasətini işə salır və bu hal Ermənistanın daha da zəifləməsini sürətləndirir. Bu şəraitdə isə Azərbaycanın Ermənistanı işğal siyasətinə görə daha asan əzməsi də qaçılmaz sayılır. Enerji təhlükəsizliyi məsələləri üzrə ekspert Vahe Davtyan qeyd edilənlərə konkret misal kimi Rusiya qazının gələn ildən ölkəsi üçün bahalaşmasını göstərir. O bildirir ki, bu halda Ermənistan Rusiyaya daha çox vəsait ödəməli olacaq və bu vəsait hərbi, sosial xərclərin azalmasına gətirib çıxaracaq: "Ermənistan üçün qaz tarifinin qaldırılması qaçılmazdır. Nikol Paşinyanın verdiyi bəyanat kontekstindən açıq şəkildə görünür ki, 2020-ci il aprelin 1-dən etibarən qazın qiymətləri artacaq". Onun sözlərinə görə, sərhəddə qazın bahalaşması təqribən 20%, əhali üçün isə 7% ola bilər: "Lakin qazın qiymətlərinin artması elektrik enerjisinin son tarifinin formalaşmasına da təsir göstərir, həm də bu, dolayısı ilə iqtisadiyyatın müxtəlif sahələrində sabitliyə əks təsir edəcək". Onun sözlərinə görə, hazırda qazın qiymətinin yanvarın 1-dən qaldırılmaması ilə bağlı siyasi qərar var, ancaq bu çox qısa müddətlidir: "Həm qlobal enerji bazarında, həm də Rusiya qaz bazarında baş verən makroiqtisadi prosesləri nəzərə alsaq, bu məsələni yalnız iqtisadi məntiqlə nəzərdən keçirsək, Ermənistan üçün qaz qiymətinin artması qaçılmazdır". Davtyan Rusiya ilə danışıqların bir ilə yaxındır davam etdiyini, lakin hər hansı yekun nəticə olmadığını deyib: "Paşinyanın açıqlamasına rəğmən, 2020-ci il aprelin 1-dən etibarən qazın qiymətində artım olacağının əlamətlərini görürük. Düşünürəm ki, qiymət artımı təqribən 20% ola bilər. Aydındır ki, hətta sərhəddəki indiki qiymət Ermənistanın iqtisadi fəallığını azaldır və iqtisadi artımı təmin etmək üçün stimul ola bilməz. İstənilən halda, Rusiyaya qaza görə daha çox pul ödəniləcək. O zaman digər istiqamətlərdən, məsələn, hərbi sahədən xərcləri kəsməli olacağıq. Bax bu da Rusiyanın Ermənistana vurduğu ən böyük ziyanlardan biri olacaq. Çünki belə vəziyyətdə Ermənistan regionda Azərbaycan, Türkiyə qarşısında daha zəif duruma düşür".

"Jamanak" qəzeti isə yazır ki, Paşinyanın qaz qiymətində Rusiyanı razı salmaq cəhdləri iflasa uğrayıb. Bildirilir ki, Rusiya Ermənistana min kubmetr qazın qiymətini, əslində 2020-ci il yanvarın 1-dən 200 dollara qaldırmaq niyyətindədir: "Ermənistan hakimiyyəti Rusiya ilə təbii qazın qiymətinə dair aparılan danışıqların təfərrüatını gizlədir. Amma danışıqlar Ermənistan tərəfi üçün yetərincə əlverişsiz şəraitdə keçir". Qeyd edək ki, 2019-cu il yanvarın 1-dən Rusiya Ermənistana satdığı təbii qazın min kubmetrinin qiymətini 150 dollardan 165 dolladək bahalaşdırıb. Ermənistanın "1in.am" saytı isə yazır ki, Moskvanın qaz siyasəti Rusiyanın Azərbaycana növbəti köməyi, jestidir: "Rusiya prezidenti Vladimir Putinlə razılaşmaya əsasən, Ermənistanda rus qazının qiyməti elə olmalıdır ki, ölkəmizin iqtisadiyyatına ziyan vurmasın. Bu bəyanatı Ermənistanda tanışlıq xarakteri daşıyan səfərdə olan rus jurnalistlərlə görüşdə Nikol Paşinyan səsləndirib. Amma reallıqda qiymət məsələsində Ermənistana qulaq asan yoxdur.

Qazın qiyməti yalnız erməni-rus münasibətlərinin deyil, ümumiyyətlə, Rusiyanın istənilən ölkə ilə, özü də yalnız iqtisadi, hətta mümkündür ki, yalnız siyasi deyil, həm də geopolitik, hərbi-siyasi münasibətlərinin mühüm göstəricisidir. Məhz buna görə, inqilabdan sonra qazın qiymətilə bağlı gedən proseslər və hələ başa çatmayan danışıqlar geniş müşahidələr üçün göstərici olur. Ermənistan və Rusiya, hər halda, rəsmi bəyanatlara əsasən danışıqları aparmağa davam edirlər. Paralel olaraqsa, məsələn, qeyri-rəsmi mənbələrə istinadlara əsasən, mətbuatda məlumatlar yayılır ki, Rusiya qazın qiymətinin əhəmiyyətli ölçüdə qaldırılması haqqında qərar qəbul edib, söhbət sadəcə bunun elan olunması müddətindən gedir. Və burada həm cəmiyyət, həm də dövlət olaraq, bizim üçün həlledici olan dilemma qarşısında qalırıq. Aydındır ki, qazın qiyməti müəyyən mənada mürəkkəb erməni-rus münasibətlərinin, dövlətlərarası münasibətlərin sağlamlaşdırılması prosesinin, nəhayət, Ermənistanın suverenliyinin qiymətinə çevrilir. Məhz burada geniş mənada sual yaranır: Ermənistan cəmiyyəti bu qiyməti ödəməyə nə qədər hazırdır? Xüsusilə o halda ki, bir sıra erməni dairələri, böyük hesabla, qazın qiymətini uyğunlaşdırma məsələsini hansı hakimiyyətin Rusiyanın iradəsinə daha yaxşı uyğunlaşa biləcəyi məsələsinə çevirərək, bu mövzu ilə bağlı möhtəkirlik etməyə, yanıltmağa, problemin əsl mahiyyətini, qavrayış və reallıqları dəyişdirməyə cəhd edirlər.

Nəhayət, necə deyərlər, siyasi cəza və ya kötək olaraq, Ermənistan üçün qazın qiymətinin qaldırılması, demək olar ki, məsələn, müharibə vəziyyətində Azərbaycana dəstək vermək kimi bir şeydir. Yəni Moskva bunun nəticələrini, o cümlədən bunun Ermənistanın itirilməsinə aparan birbaşa yol olduğunu dəqiq təsəvvür etməlidir. Bunda maraqlı olan bir sıra qüvvələrin mövcudluğu şübhəsizdir. Çünki bu qüvvələr dəqiq təsəvvür edir ki, erməni-rus probleminin olması Rusiya üçün Qafqazda çox ciddi problemin yaranması demək olacaq. Amma indiki halda Rusiya və Azərbaycan arasında dərinləşən münasibətlər Moskvanı tam qane edir. Çünki o, bununla regionda mövqelərini qoruyub saxlayır. Azərbaycan isə Rusiyanı öz yanında görür və proseslərin belə axarının Qarabağ münaqişəsinə də təsir göstərəcəyini hesablayır. Moskva istəsə də, istəməsə də Qafqazda rolu və mövqeyini qorumaq üçün özü də Azərbaycana yaxınlaşır. Bundan isə Ermənistan itirir".

Avropada yaşayan erməni ekspert Marine Meliksetyan bütün bunların Nikol Paşinyanın yanlış siyasətinin nəticəsi olduğunu vurğulayır: "Paşinyanın yürütdüyü bu siyasət Ermənistanı məhv edir. Bir Ermənistan vətəndaşı kimi, mən yeni hakimiyyətin xarici və daxili siyasətindən son dərəcə narahatam".

Meliksetyan vurğulayıb ki, Ermənistanda dövlət institutları dağılır, kin və nifrət təbliğatı aparılır, Dağlıq Qarabağ məsələsində isə hökumətin aydın strategiyası yoxdur: "Hesab edirəm ki, bu siyasət Ermənistanın dövlətçiliyi üçün ciddi təhlükədir. Bu, dağıdıcı bir siyasi kursdur, ona görə də hökuməti və şəxsən Paşinyanı istefa verməyə çağırıram. Paşinyan hakimiyyətdən getməklə Ermənistana ən böyük faydanı vermiş olar. Bu gün onun apardığı siyasət Ermənistanın məhvinə səbəb olacaq. Bizim regionda artıq heç bir müttəfiqimiz yoxdur. Biz Rusiyanı belə itirmişik".

Erməni politoloq Vigen Akobyan isə bildirir ki, Moskva artıq Qarabağ məsələsində müəyyən ərazilərin ilk mərhələdə Azərbaycana qaytarılmasını istəyir və bunun üçün Ermənistana təzyiqləri artırır. Onun sözlərinə görə, bu durumda erməni tərəfinin Qarabağ məsələsinin həlli haqqında bəzi vurğuları transformasiya yaşayır: "Əvvəllər millətlərin öz müqəddəratını təyin etməsi haqqında danışılırdısa, indi məsələyə cavabdeh olanlar status, insan hüquqları və təhlükəsizlik məsələlərini irəli sürür". O xatırladır ki, illər əvvəl məqalələrindən birində belə bir versiya haqqında birinci prezident Levon Ter-Petrosyan danışıb: "Bunun çox vurğulandığını düşünmürəm, çünki biri dominant olur, biri isə öz müqəddəratını təyin etməyə tərəf qayıdır. Məncə, erməni tərəfinin strateji yanaşmaları sona qədər aydınlaşdırılmayıb. Buna görə də, təsadüfi deyil ki, siyasi arenada bir çoxları bir həftə əvvəl verilən bəyanatın bu gün gündəm olub-olmadığını aydın şəkildə anlaya bilmir. Geosiyasi rakursda da vəziyyət maraqlıdır. Rusiyanın "Lavrov planı" əsasında Qarabağ münaqişəsini çözmək və bunun üçün İrəvana təzyiqlərini artırması da bunu göstərir".

Digər ekspertlər də hesab edir ki, Rusiya həm ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi, həm də regionun aparıcı dövləti kimi Dağlıq Qarabağ münaqişəsinin həllində məsuliyyət daşıyır. Buna görə də, Kreml rəsmiləri münaqişənin həlli ilə bağlı artıq müəyyən nəticələrin olmasını istəyir. Bu nəticələrin olması Ermənistanın danışıqlar prosesində konstruktiv mövqe sərgiləməsindən keçir.

Belə mövqenin sərgilənməsi isə Ermənistana konkret təzyiqlər olduğu halda mümkündür. İndi belə görünür ki, Rusiya bu məsələdə Ermənistana təzyiq etməkdə istəkli tərəf kimi çıxış edir. Sözsüz ki, burada Azərbaycan diplomatiyasının təsiri də mühümdür və Moskva ilə bu istiqamətdə kifayət qədər fəal iş aparılır. Azərbaycan hesab edir ki, münaqişə mərhələli, beynəlxalq hüquqa əsaslanaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Bu məsələyə isə Rusiyanın da Ermənistana qarşı təzyiq kartlarını işə salıb töhfə verməsi vacib sayılır və belə görünür ki, Kreml Bakının bu istəyi ilə hesablaşır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Qeyri-neft sektorunda artan istehsal fonunda indi diqqət mərkəzində yer alan başlıca məqamlardan biri bu istiqamətdə ixracın artırılması və müvafiq bazarların tapılmasıdır. Eyni zamanda, hökumət üçün başlıca prioritet məsələlərdən biri ənənəvi bazarlarda mövqelərin qorunub saxlanması və daha güclü hala gəlməsidir.**

# Qeyri-neft sektorunda Rusiyanın əsas ticarət tərəfdaşı kimi Azərbaycan qəti mövqelərə keçir...




Ənənəvi bazarlardan bəhs edərkən burada Rusiyaya xüsusi toxunmaq lazım gəlir.

Hazırda Azərbaycan qeyri-neft məhsullarının əsas idxalçısı Rusiyadır. Azərbaycanın bu ölkəyə göndərdiyi qefri-neft məhsullarının həcmi artıq 500 milyon dolları keçir. Amma görünür ki, Rusiya ilə münasibətlərin inkişafı sayəsində Azərbaycan bu ölkəyə indiki ilə müqayisədə ən azı iki dəfə çox qeyri-neft məhsulları göndərəcək. Bu prosesə birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya səfəri, keçirdiyi görüşlər, əldə etdiyi razılıqlar da əlavə təkan verir. Yeri gəlmişkən qeyd edək ki, Mehriban Əliyeva X Azərbaycan-Rusiya Regionlararası Forumunda qeyri-neft məhsullarının Rusiyaya ixracına xüsusi toxunub: "Rusiya Azərbaycanın əsas tərəfdaşlarından biridir və bizim qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Artmaqda olan əmtəə dövriyyəsinin inkişafı və şaxələndirilməsi üzrə kompleks tədbirlər həyata keçirilib. Azərbaycan xaricdə özünün ilk ticarət nümayəndəliyini Rusiya Federasiyasında açıb. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları yaradılıb və uğurla fəaliyyət göstərir. Bizim istehsalçıların müxtəlif regionlara ixrac missiyaları təşkil edilir. Rusiya Federasiyası ölkəmizdən ixrac edilən kənd təsərrüfatı məhsullarının əsas istehlakçısıdır".

Rusiya Federasiyası Şurasının sədri Valentina Metviyenko da Mehriban Əliyevanın səfərinin qarşılıqlı münasiöbətlərin dərinləşməsində mühüm rol oynadığını vurğulayır: "Həqiqətən də, çox hörmətli Mehriban Əliyeva tutduğu bütün vəzifələrdə, fəaliyyətinin bütün sahələrində - bir vaxtlar parlamentdə, Heydər Əliyev Fondunun rəhbərliyində, Azərbaycanın birinci vitse-prezidenti rolunda hər zaman ölkələrimiz arasında dostluğun möhkəmlənməsinə böyük diqqət ayırıb. Ölkələrimizin regionları arasında əməkdaşlıq Rusiya-Azərbaycan münasibətlərinin çox vacib tərkib hissəsidir. Regionlarımızyerli hakimiyyət orqanları, sahibkarlar, geniş ictimaiyyət nə qədər səmərəli qarşılıqlı fəaliyyət göstərsə, tərəfdaşlığımızın təməli bir o qədər güclü olar. Bu əlaqələr çoxpredmetli, konkret və praqmatikdir, bürokratiyadan azaddır, yekun nəticəyə istiqamətlənib və ən müxtəlif sahələrdə-ticarət, iqtisadi qarşılıqlı fəaliyyət, səhiyyə, mədəniyyət sahəsində əməkdaşlıqda və digər istiqamətdə inkişaf edir.

İldən-ilə regionlararası əməkdaşlığın səmərəliliyi artır və bununla da ticarət dövriyyəmiz artır. Bu gün deyə bilərik ki, Rusiyanın əksər subyektləri - 70-dən çox region Azərbaycanın regionları ilə fəal qarşılıqlı fəaliyyət göstərir. İlk növbədə, Moskva, Moskva vilayəti, Sankt-Peterburq, Stavropol, Krasnodar diyarı, Həştərxan, Çelyabinsk və digər vilayətləri qeyd edə bilərəm".

Yuxarıda qeyd olunduğu kimi, dərinləşən əməkdaşlıq fonunda Azərbaycandan Rusiyaya göndərilən qeyri-neft məhsullarının həcmində də əhəmiyyətli artım gözlənir. Baş nazirin müavini Şahin Mustafayev "Vesti Kavkaza"ya açıqlamasında bu xüsusda maraqlı məqmalara diqqət çəkərək bildirir ki, hazırda Azərbaycan kənd məhsullarının Rusiya bazarına ixracatı 600 milyon dollara yaxındır: "Hökumətlərarası komissiya çərçivəsində təhlil aparıb, bu rəqəmi azı ikiqat artıra biləcəyimizi anladıq. Bu istiqamətdə gedirik. Bu baxımdan gömrük və vergi sahəsində müasir texnologiyaların istifadəsi böyük əhəmiyyət daşıyır. Hazırda Rusiyanın aidiyyəti qurumlarının Azərbaycandan gedən məhsulları elektron mühitdə izləmək imkanına nail olmuşuq. İndi Rusiya bazarına göndərdiyimiz malların mənşəyini, keyfiyyətini, başqa göstəricilərinin də yerindəcə avtomatik olaraq yoxlana bilməsi üçün addımlar atırıq".

Ötən ildə Rusiya ilə ticarət dövriyyəsinin 20 faiz artdığını qeyd edən Ş.Mustafayev bu ilin 9 ayında 24 faizlik artıma nail olunduğunu diqqətə çatdırıb: "Ticarət müharibələri, sanksiyalar, embarqoların baş alıb getdiyi bir vaxtda bu cür nəticələr daha da sevindirici, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün hədsiz əhəmiyyətlidir".

Bu açıqlamadan aydın görünür ki, Azərbaycan təkcə aqrar sahədə istehsal edilən məhsulların Rusiyaya ixrac həcmini 1, 2 milyard dollara çatdırmağı düşünür. Prosesdə Rusiyanın özü də maraqlı tərəf kimi çıxış edir. Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər Komitəsinin sədri Konstantin Kosaçov da iki ölkə arasında mövcud münasibətlər fonunda bunu mümkün sayır. Onun sözlərinə görə, Azərbaycan Rusiya ilə münasibətlərini maksimum dərəcədə inkişaf etdirmək niyyətindəki səmimiliyə şübhə üçün heç vaxt əsas verməyib. Komitə sədrinin fikrincə, əsas göstəricilərdən biri Azərbaycanda rus dilinə, rusdilli əhaliyə və ortaq keçmişə münasibətdir: "Bu mənada, Azərbaycan postsovet məkanında hər bir dövlət üçün nümunə ola bilər. Bu, bütün digər sahələrdə irəliləmək üçün zəruri olan mənəvi və əxlaqi əsaslar yaradır".

Rusiyalı senator qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi hər il onlarla faiz artır: "Sosial və humanitar sahələrdə əməkdaşlıq inkişaf edir. Gənclər və tələbə mübadiləsi həyata keçirilir, Azərbaycanda Rusiyanın ali məktəblərinin filialları açılır. Bütün bunlar ölkələrimiz və xalqlarımız üçün zəruri olan uzunmüddətli əməkdaşlığın əsasını yaradır. Biz doğru yoldayıq və bu əməkdaşlığa regionlararası meyarları da əlavə etməyimiz onu göstərir ki, maraqlar qarşılıqlı, dayanıqlı, ciddi və uzunmüddətlidir".

**Dağıstanın başçısı Vladimir Vasilyev də eyni mövqeni bölüşür. O qeyd edib ki, Rusiya, eləcə də onun bir hissəsi olan Dağıstan və Azərbaycan iqtisadi sahədə sıx əməkdaşlıq edəcək: "Biz rəqib yox, tərəfdaş olmaq istəyirik. Xüsusən, indi bizim kənd təsərrüfatı və ət məhsullarını yüksək gəlirlə realizə etmək barədə danışırıq. Azərbaycan kəndlilər, kənd təsərrüfatı istehsalçıları üçün çox yaxşı şərait yaradıb, vergiləri azaldıb. İndi respublikalar arasında nəqliyyat məsələləri yoluna qoyulur ki, zənnimcə, bu da münasibətlərin inkişafına kömək edəcək. Hökumətlərimiz artıq bu məsələni həll edib".**

***Ramil QULİYEV***

# Bakıda erməni dili kursları...

## İsmayıl Tanrıverdi: ”Bu gün Azərbaycanda erməni dilini tədris etmək, öyrətmək üçün kifayət qədər mütəxəssis var”

**Son dövrlər Azərbaycanda erməni dilinin öyrənilməsi, bu sahədə mütəxəssislər yetişdirilməsi üçün mütəxəssis hazırlığı həyata keçirilir. Müxtəlif profilli ali məktəblərdə ermənişünaslıq şöbələri, fakültələri, mərkəzləri fəaliyyət göstərirlər.**

Ölkəmizdə erməni dilinin mütəşəkkil öyrənilməsi prosesinə son bir neçə ildir başlanıb, ermənilər isə Azərbaycan dilini və azərbaycanşünaslığı hələ keçən əsrin 60-70-ci illərindən, bəlkə də ondan əvvəlki dövrdən öyrənməyə başlayıblar. SSRİ tərkibində olan Ermənistanda Azərbaycan dilini öyrənmək əsas prioritetlərdən biri olub. Hətta əldə etdiyimiz məlumatlara görə, həmin dövrdə Azərbaycan dilinin gizlin tədrisinə Təbriz Universitetində dərs deyən erməni əsilli professorlar cəlb edilirmiş ki, bu dili tələbələr daha yüksək səviyyədə mənimsəsinlər. Bu həm də ermənilərin siyasəti idi ki, Azərbaycan dilini ermənilərə azərbaycanlılar deyil, məhz ermənilər öyrətsinlər.

Qeyd etdiyimiz kimi, son zamanlar paytaxtımızda müəyyən qurumlar tərəfindən ödənişsiz erməni dili kursları təşkil edilir, məqsəd düşmənin dilini öyrətmək və onlara öz dilləri ilə qalib gəlməkdir.

Məlumatlara görə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) gənc alimlər və tədqiqatçılar üçün ödənişsiz erməni dili kursları təşkil edir.

Erməni dilini başlanğıc səviyyədən öyrənmək istəyən magistr və ya doktorantura dərəcələrinə malik olan və gələcəkdə elmi fəaliyyətlə məşğul olacaq şəxslər kurslarda iştirak üçün müraciət edə bilərlər.

Eyni zamanda, kurslara dövlət qurumlarının nümayəndələri də qatıla bilərlər. Kursların dekabrın 1-dən başlanması nəzərdə tutulur.

Bakıda yeni açılmaqda olan erməni dili kurslarında bu dili öyrənmək istəyənlərə dərs demək üçün kifayət qədər müəllim-mütəxəssisin olduğunu deyən Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Erməni araşdırmaları elmi-tədiqiqat və tədris mərkəzinin böyük elmi işçisi, ermənişünas İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda erməni dilinin öyrədilməsi ilə bağlı ödənişsiz kursların təşkil edilməsinin çox böyük əhəmiyyəti var. İ.Tanrıverdi qeyd etdi ki, bu gün Azərbaycanda erməni dilini biləl yüksək ixtisaslı, peşəkar kadrlar az deyil. Onun sözlərinə görə, əvvəllər iki-üç mütəxəssis var idisə, bu gün o mütəxəssislərin sayı çoxdur. Yeni nəsil ermənişünasların əsasən gənclərdən ibarət olduğunu deyən İ.Tanrıverdi hesab edir ki, erməni dilinin öyrənilməsi sahəsində xeyli iş görülüb. "Erməni dilinin öyrədilməsi ilə bağlı yeni kursun açılmasını müsbət hesab edirəm. Bu gün Azərbaycanda erməni dilini tədris etmək, öyrətmək üçün kifayət qədər mütəxəssis var. Məsələn, bu gün mənim özümün yetirmələrim var ki, onlar bu sahədə yaxşı mütəxəssislərdir. Erməni dilinin tədrisini həyata keçirmək üçün kadr qıtlığımız yoxdur, onlar gənc nəslə erməni dilini öyrədirlər. Bizim yetirmələrimiz müxtəlif tədris mərkəzlərinə, Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, eləcə də digər strukturların akademiyalarına dəvət edilirlər".

Azərbaycanda erməni dilinin öyrədilməsi prosesinə çox gec başladıldığını deyən İ.Tanrıverdinin sözlərinə görə, bu dilin öyrədilməsinə başlanmasının səbəbi erməni mətbuatında Daşaltı faciəsi ilə bağlı yer alan məqalə olub: "Çox təəssüf ki, biz erməni dilinin tədrisinə, öyrədilməsinə çox gec başladıq. Bu bizim qüsurumuzdur. Erməni dilinin öyrədilməsi prosesinə 2012-ci ildə başladıq. Erməni KİV-ində təqdim etmişdilər ki, 1992-ci ildə Daşaltı əməliyyatı zamanı onlar Azərbaycan dilini təmiz bildikləri üçün azərbaycanlı hərbçiləri məhv ediblər. Ermənilər deyiblər ki, rabitə ilə eşidiblər ki, həmin əraziyə yüzdən artıq əsgər yığışıb kömək tələb edib və Azərbaycan tərəfi də bizim əsgərlərə "bir az dözün, sizin köməyinizə 20-24 nəfər qara geymlilər gələcək" məlumatını çatdırıb, onlar da tez qara geyimlilləri hazırlayıb azərbaycanlıların yanına göndəriblər, beləcə, çaşqınlıq nəticəsində hərbçilərimiz həlak olublar. Ermənilər Daşaltıda oğullarımızı ona görə məhv edə bildilər ki, onlar Azərbaycan dilini təmiz bilirdilər. Ermənilər bizimkilərdən əvvəl ora çatanda təmiz Azərbaycan dilində danışblar və bizimkilər də elə biliblər ki, onlar azərbaycanlılardır, ona görə də atəş açmayıblar, nəticədə bu böyük faciə baş verib. Bu məlumat yayıldıqdan sonra cənab Prezident göstəriş verdi ki, Azərbaycanda da erməni dili öyrənilsin və buna görə də 2012-ci ildə ATV-də müsabiqə elan edildi, orada mən də iştirak etdim. Müsabiqədən keçdim, sonra məni həm də BDU-ya göndərdilər".



**”Ermənistanda beynəlxalq status qazanan sözləri, kütləvi olaraq, erməni dilinin tərkibindən çıxarırlar”**

İ.Tanrıverdi qeyd etdi ki, bu gün bəziləri erməni dilinin öyrədilməsinə, tədrisinə qarşı çıxırlar. Bunun düzgün olmadığını deyən İ.Tanrıverdi hesab edir ki, düşmənin dilini bilmədən ona qalib gəlmək olmaz. Müasir erməni dilində bu gün ciddi dəyişikliklər edildiyini deyən İ.Tanrıverdinin sözlərinə görə, ermənilər beynəlxalq sözləri dillərindən çıxarırlar. "Mən istənilən kurs dərs deyərkən bir devizim var: düşmənə öz dilində qalib gəlmək üçün onun dilini öyrənirik. Bu dilin öyrədilməsi çox vacibdir. Bir məqamı da qeyd edim ki, hazırda erməni dili çox çətinləşdirilib, çünki Ermənistanda beynəlxalq status qazanan sözləri, kütləvi olaraq, erməni dilinin tərkibindən çıxarırlar. Hazırda Ermənistanda alınma sözlərə qarşı rəsmi səviyyədə mübarizə aparılır. Bütün əcnəbi sözləri çıxarırlar. Hazırda əlimdə 200-dən artıq yeni söz var ki, ermənilər həmin sözləri beynəlxalq status qazanan sözlərin əvəzinə "kəşf" ediblər. Bu gün Ermənistanda dilə nəzarət edən xüsusi elmi şura var, həmin şuranın tərkibi 7 professordan ibarətdir. "Alternativ", "variant", "kompyuter", "reklam", "turist" və digər beynəlxalq sözlər var ki, onları həmin şura dəyişib. Ermənilər erməni dilindən iki sözü götürüb, hər sözün başından üç hərf götürüb birləşdirirlər və yeni söz "yaradır"lar. Hansısa media orqanı, jurnalist, yazar yazısında beynəlxalq sözlərin ermənicə yaradılan variantından istifadə etməzsə, beynəlxalq sözün özünü işlədərsə, o, 1000 dollar cərimə olunur, hüquqi şəxslərin bu istiqamətdə buraxdıqları səhv isə onlara 10 min dollara başa gəlir".

**İradə SARIYEVA**

**"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Prezident fərmanının icrasına başlandığı gündən əhalinin bəzi banklardan narazılığı artmaqda davam edir.**

# Prezidentin məlum qərarından sonra Maliyyə Bazarlarına Nəzarət Palatası vətəndaşa ödənilməli qanuni 7 mini 2600 manata necə endirdi...




Biz bu istiqamətdə apardığımız araşdırmalar zamanı müəyyən etmişik ki, vətəndaşlara dövlət tərəfindən müəyyən edilən kompensasiyaların ödənişində ciddi süründürməçiliyə yol verilir. Analoji məzmunlu şikayətlə bizə müraciət edən Qasımov Amil Bərxudar oğlu bildirir ki, rəsmi qaydada ona müəyyən məbləğdə kompensasiyanın ödənilməsi nəzərdə tutulub və bu, imzalı, möhürlü sənədlərdə öz əksini tapıb. Şikayətçinin rastlaşdığı haqsızlıqlarla bağlı onunla detallı söhbət etdik.

Amil Qasımov bildirir ki, o hazırda fəaliyyəti dayanan "Zamin Bank"dan götürdüyü kreditə görə bu vəziyyətlə üzləşib: "Mən 2015-ci ildə həmin bankdan 5100 (beş min yüz) dollar kredit götürmüşəm. Həmin vaxt dolların kursu 1 manat 05 qəpik idi. Bunun qarşılığında mən banka borcumu artıqlaması ilə qaytarmışam. Kurs 1.70 olanda mən onlara 12.500 (on iki min beş yüz) manat qaytarmışam. Prezidentin müvafiq fərmanı çıxandan sonra bankdan mənə rəsmi sənəd verildi ki, 4588 ABŞ dolları qalığım var. Yəni həmin pul kompensasiya kimi mənə qaytarılmalıdır. Sizə təqdim etdiyim sənəddə bu öz əksini tapıb. Məhz həmin sənəddə göstərilir ki, mənim əlavə heç bir borcum yoxdur. Bunu da manata çevirəndə 7800 (yeddi min səkkiz yüz manat) edir. Mən pulu çıxarmaq istəyəndə məlum oldu ki, həmin məbləğ doğrudan da "Zamin Bank"ın cari hesabındadır, lakin bloklanıb. Getgələdən sonra gördülər ki, mənim puldan xəbərim var. Çağırdılar məni və dedilər ki, hesab aç, ora pul köçürək. Mənim hesabıma cəmi 600 manat pul köçürdülər. Sonra isə poçt vasitəsilə ünvanıma 353 manat pul göndərildi. Səhv etmirəmsə, sonuncu məbləği Maliyyə Bazarlarına Nəzarər Palatası göndərib. Sonra Azərbaycan Əmanətlərin Sığortalanması Fondundan mənə rəsmi məktub gəldi. Həmin məktubda rəsmən göstərilir ki, Palata mənə 2619 manat ödəməlidir. Çox maraqlı vəziyyət yaranır. Mənə olan borc 7800 manatdır. Bunlar isə mənə cəmi 953 manat ödəyiblər. Müəyyən etdikləri 2619 manatı ödənilən pulun üstünə gələndə də heç mənə olan borcların yarısı etmir. Bəs qalan pul hara getdi? Mənim ödədiyim bütün çeklərim əlimdədir. Borcum yoxdursa, niyə mənə təyin olunan kompensasiyanı tam ödəmirlər? Mənə deyirlər ki, səhvimiz olub, sənə ödənilməli məbləğ 2619 manatdır. Onu da Palata verməlidir. İş burasındadır ki, heç Palata da həmin pulu vermək istəmir. Dəfələrlə müraciət etmişəm, o pulu vermirlər. Xahiş edirəm, bu məsələnin araşdırılmasında mənə kömək edəsiniz".


ADIF

№ 1901/2005C1617
"24" oktyabr 2019

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına

Apelyasiya Komissiyasının 13.09.2019-cu il tarixli 1920215208 məktubuna əsasən ləğv prosesində olan "Zaminbank" ASC-nin müştərisi Qasımov Amir Bərxudar oğlu, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanına əsasən əsas borcunu tam ödədiyini əsas götürərək, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanına uyğun olaraq kompensasiya ödənilməsi ilə bağlı 19.04.2019-cu il tarixdə artıq daxil olmuş 1540.72 USD-nin 2619.22 manat ekvivalentində kompensasiya məbləği 21.10.2019-cu il tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin hesabına geri qaytarılmışdır.

Nəzərə almağınızı xahiş edirik.

Qoşma : 1 vərəq

İcraçı direktorun müavini, İcraçı direktorun vəzifəsini müvəqqəti icra edən — Vüqar Abdullayev


HESABDAN ÇIXARIŞ




Vətəndaşın üzləşdiyi problemlə bağlı biz Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətinin rəhbəri Elşən Allahverdiyevlə əlaqə saxladıq. O bizimlə söhbətində bildirdi ki, belə hallar çox olur və bu, dəqiq araşdırma tələb edir. Biz də qurumun dəqiq araşdırma apara bilməsi üçün şikayətçinin bizə təqdim etdiyi müvafiq sənədləri Elşən müəllimə göndərdik. Elşən müəllim artıq bu işin Orxan adlı hüquqşünasa həvalə olunduğunu dedi, araşdırdıqdan sonra ətraflı məlumat verəcəklərini bildirdi: "Belə hallar olur. Bəzən olur ki, vətəndaş ona ünvanlanan pulu gedib götürmür. Elə hal da olur ki, vətəndaşın başqa borcu olur, vəsait ora yönəlir. Bu səbəbdən də dəqiq araşdırıb, kömək etməyə çalışacağıq".

İndiki halda isə şikayətçinin harasa borcunun olduğu və ya göndərilən puldan xəbərinin olmaması kimi hallar yoxdur. Ümidvarıq ki, Palatanın işi nəzarətə götürməsindən sonra problem tezliklə həllini tapacaq.

***Məhəmmədəli QƏRİBLİ***

# Masallının Boradigah sakinləri Prezidentə və Birinci vitse-prezidentə müraciət etdilər: "Xahiş edirik, bu yolun bərpası üçün göstəriş verəsiniz"


Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə
surəti: Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Müraciəti

Hörmətli prezident, hörmətli Mehriban xanım, öncə nəzərinizə çatdıraq ki, bizim-Masallı rayonu Boradigah qəsəbəsinin bir qrup sakininin Sizə ünvanlanan bu müraciəti həmdə 10-dan artıq kəndin sakinlərinin arzusudur. Problemi diqqətinizə çatdırmazdan öncə Bakı-Astara yolunun yüksək səviyyədə yenidən qurulmasına görə Sizə təşəkkür edirik. İndi bu yol əvvəlkindən çox rahat, üstəlik vaxt baxımından xeyli səmərəlidir. Amma problem ondadırki hal-hazırda ölkənin ən böyük qəsəbələrindən olan Boradigah və 10-dan artıq kəndi bu magistralla birləşdirən, təxminən 6 kilometrlik yol (Boradigah-Qumbaşı) dağılmış vəziyyətdədir. Bu səbəbdən minlərlə sakin mənzil başına çatmaq üçün alternativ yollardan (Musaküçə-lürən və Masallı şəhərinin içi) istifadə etmək məcburiyyətində qalıb. Sizin bir müddət əvvəl dağılmış yollarla bağlı Avtomabil Yolları Dövlət agentliyinin rəhbəri Saleh Məmmədova verdiyiniz qəti tapşırıqdan sonra biz problemlə bağlı bu quruma müraciət etdik. Amma bizə verilən rəsmi cavabda deyildiki, bəhs etdiyimiz yol onların balansında deyil. Bunun üçün mütləq hokumətin problemə müdaxiləsi lazımdır. Hörmətli prezident, hörmətli Mehriban xanım, bilirik ki, bu yaxınlarda Sizlərin təşəbbüsünüzlə dahi şair İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Ələt-Astara magistralının Masallıdan keçən hissəsinin hər iki tərəfində yaşıllıq zolağı salınacaq. Sizlərdən xahiş edirik ki, bu xeyirxah işlə paralel Boradigah-Qumbaşı yolunun bərpası barədə də göstəriş verəsiniz. Öncədən təşəkkür edirik.

İmza: Hüseynov Həsət
İmza: Nəzərov Ziyafətdin
İmza: Şəhbəzov İqbal
İmza: Həsənov Emin
İmza:
İmza:
İmza:
İmza: Əhmədov Elçin
İmza:
İmza:

Tarix: 22.11.

**Masallı rayonu Boradigah qəsəbəsinin bir qrup sakini Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edib.**

**Müraciətdə deyilir:**

"Hörmətli Prezident, hörmətli Mehriban xanım, öncə nəzərinizə çatdıraq ki, bizim - Masallı rayonu Boradigah qəsəbəsinin bir qrup sakininin Sizə ünvanlanan bu müraciəti həm də 10-dan artıq kəndin sakinlərinin arzusudur. Problemi diqqətinizə çatdırmazdan öncə Bakı-Astara yolunun yüksək səviyyədə yenidən qurulmasına görə Sizə təşəkkür edirik. İndi bu yol əvvəlkindən çox rahat, üstəlik vaxt baxımından xeyli səmərəlidir. Amma problem ondadır ki, hazırda ölkənin ən böyük qəsəbələrindən olan Boradigah və 10-dan artıq kəndi bu magistralla birləşdirən, təxminən 6 kilometrlik yol (Boradigah-Qumbaşı) dağılmış vəziyyətdədir. Bu səbəbdən minlərlə sakin mənzil başına çatmaq üçün alternativ yollardan (Musakücə-lürən və Masallı şəhərinin içi) istifadə etmək məcburiyyətində qalıb. Sizin bir müddət əvvəl dağılmış yollarla bağlı Avtomobil Yolları Dövlət agentliyinin rəhbəri Saleh Məmmədova verdiyiniz qəti tapşırıqdan sonra biz problemlə bağlı bu quruma müraciət etdik. Amma bizə verilən rəsmi cavabda deyildi ki, bəhs etdiyimiz yol onların balansında deyil. Bunun üçün mütləq hökumətin problemə müdaxiləsi lazımdır.

Hörmətli prezident, hörmətli Mehriban xanım, bilirik ki, bu yaxınlarda Sizlərin təşəbbüsünüzlə dahi şair İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Ələt-Astara magistralının Masallıdan keçən hissəsinin hər iki tərəfində yaşıllıq zolağı salınacaq. Sizlərdən xahiş edirik ki, bu xeyirxah işlə paralel Boradigah-Qumbaşı yolunun bərpası barədə də göstəriş verəsiniz. Öncədən təşəkkür edirik".

# İcbari tibbi sığortanın bütün ölkə miqyasında eyni vaxtda tətbiq qərarı niyə dəyişdi...

**Azərbaycan əhalisinin səbrsizliklə gözlədiyi icbari tibbi sığortanın ölkədə tətbiqi ilə bağlı əvvəlcədən açıqlanan qrafik və sığorta ilə bağlı bəzi qaydalar dəyişib. Bu barədə İcbari Tibbi Sığorta Agentliyinin idarə heyətinin sədri Zaur Əliyev bildirib.**



Əsas yenilik odur ki, ölkədə icbari tibbi sığortanın tətbiqi birdən-birə bütün ölkə üzrə deyil, mərhələ-mərhələ başlanacaq. Bu məqsədlə ölkə ərazisi şərti olaraq 4 hissəyə bölünəcək. Yanvarın 1-dən tətbiq ediləcək icbari tibbi sığorta əvvəlcə ölkənin şimal bölgəsinin 20 rayonundan başlayacaq və hər 3 aydan bir digər rayonlar da qoşulacaq.

Z.Əliyev sözügedən məsələ ilə bağlı bunları deyib: "İcğari tibbi sığortanın yanvarın 1-dən etibarən Azərbaycanın şimal bölgəsində başlanmasını təklif edirik. Şimal bölgəsinə 20 rayon daxildir. Bundan 3 ay sonra, yəni aprelin 1-dən etibarən bu prosesə ölkənin qərb bölgəsindəki rayonlar qoşulacaq, söhbət daha 17 rayondan gedir. 3-cü rübdən etibarən bu prosesə cənub bölgəsindəki 14 rayon qoşulacaq. 4-cü rübdən isə bu prosesə Bakı və Sumqayıt rayonları da qoşulur".

## *Fikrət Yusifov: "Çünki birdən-birə icbari tibbi sığorta mexanizmini, Bakı daxil olmaqla, bütün ölkə üzrə işə salmaq fiziki baxımdan mümkün deyil"*

Nəticədə 2020-ci ilin sonunadək bütün ölkə əhalisi icbari tibbi sığortadan yararlana biləcək.

O da məlumdur ki, necə vaxt idi icbari tibbi sığortanın gələn ildən etibarən bütün ölkə üzrə tətbiq ediləcəyi deyilirdi. Maraqlıdır, icbari tibbi sığortanın bütün ölkə miqyasında eyni vaxtda tətbiq edilməsi qərarı niyə dəyişdi? Bunun səbəbi nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, fiziki baxımdan eyni vaxtda bunu bütün ölkə üzrə tətbiq etmək mümkün deyil: "Ona görə də icbari tibbi sığortanın 2020-ci ildən etibarən ölkə üzrə həyata keçirilməsi mərhələ-mərhələ baş tutacaq. Çünki gələn ildən etibarən birdən-birə icbari tibbi sığorta mexanizmini, Bakı daxil olmaqla, bütün ölkə üzrə işə salmaq fiziki baxımdan mümkün deyil. Ona görə də bu iş rüblər üzrə həyata keçiriləcək. Hər rüb bir neçə region üzrə icbari tibbi sığorta mexanizmi işə düşəcək. Hesab edirəm ki, icbari tibbi sığortanın bu formada tətbiqi daha keyfiyyətli olar. Bunun sayəsində yanlışlıqlara yol verilməyəcək və bu sahədə mövcud olan problemlər bir neçə il ərzində bütün ölkə üzrə həll olunacaq. İcbari tibbi sığorta tətbiq olunarkən onun özünün iş prinsipləri var. Hesab edirəm ki, həmin prinsiplərin hamısı yüksək səviyyədə gözlənilməlidir. Məndə olan məlumata görə, bu il 3 rayonda sınaq məqsədilə tətbiq olunan icbari tibbi sığortanın nəticələri müsbətdir. Hətta bir sıra gözləntilərdən də yaxşı nəticələr əldə olunub. Bu mərhələli keçiddə məqsəd ondan ibarətdir ki, icbari tibbi sığortanın tətbiqi səmərəli olsun. Ona görə də hesab edirəm ki, icbari tibbi sığortanın bütün prinsiplərinin gözlənilməsi, nəticə etibarilə, sonda yaxşı nəticələrin əldə olunmasına imkan verəcək".

*"Bunun sayəsində yanlışlıqlara yol verilməyəcək və bu sahədə mövcud olan problemlər bir neçə il ərzində həll olunacaq"*

***Vidadi ORDAHALLI***

# "Suşi"dən tələbə dünyasını dəyişdi, "suşi" reklamçıları öz işlərindədir...

**Son zamanlar ölkədə qida zəhərlənmələrinin sayı artıb. Yay-payız aylarında daha çox toyxanalar, şadlıq evlərində, yaxud qarpızdan zəhərlənmələr çox olurdusa, ötən həftə BDU-nun yataqxanasında yaşayan üç qız ağır şəkildə qidadan zəhərləndi.**



Həmin qızlardan biri hadisə nəticəsində dünyasını dəyişdi, digərlərinin isə vəziyyəti ağır olaraq qalır. Qızların "suşi" adlı qidadan zəhərləndiyi açıqlandı.

Qeyd edək ki, bu gün "suşi" adlı xarici təama böyük tələbat var. Bakının əksər restoranında "suşi" təqdim olunur. Bu təamı sevənlər də az deyil. "Suşi"nin sevilməsi səbəblərindən biri şou-biznes nümayəndələrinin mütəmadi olaraq adıçəkilən təamı geniş şəkildə reklam etməsidir. Müğənnilər həm şəxsi "İnstagram" səhifələrində "suşi"ni geniş şəkildə təbliğ edir, eyni zamanda, telekanallarda da qeyd olunan qida açıq şəkildə reklam olunur.

Ekspertlər bildirirlər ki, üç gənc qızın "suşi"dən zəhərləndiyi ərəfədə "suşi"nin reklamı dayandırılmalıdır. İstər müğənnilərin sosial şəbəkədə "suşi"ni reklam etməsi, istərsə də telekanallarda bu təamın təbliğ olunması insanların qəzəbinə səbəb olur.

Onu da bildirək ki, bütün dünyada məşhurlaşan bu yapon yeməyi orqanizmə sağalmaz ziyan vura bilər. Dünyaca məşhur "Telegraph" nəşri "suşi"nin insan orqanizmi üçün təhlükəsi barədə geniş material dərc edib. Florida Atlantik Universitetinin alimləri "suşi"nin təhlükəsi ilə bağlı 12 il ərzində apardıqları tədqiqatın nəticələrini açıqlayıblar. Araşdırmalar nəticəsində "suşi"nin tərkibində olan superbakteriyaların antibiotiklərə qarşı davamlılığının son 5 ildə ikiqat artdığı aşkar olunub.

Bu səbəbdən alimlər çiy balıq yeməklərinin istehlakını məhdudlaşdırmağı məsləhət görürlər. Mütəxəssislər çiy balıq ilə "suşi" yeyən insanların orqanizmində dəniz məhsullarından zəhərlənməyə səbəb olan "vibrio alginolyticus" bakteriyalarının dərmanlara qarşı güclü müqavimət göstərdiklərini müəyyənləşdiriblər.

Bu növ bakteriyalar dəniz suyunda aktiv şəkildə çoxalaraq yayılırlar. Həmin bakteriya bir çox ölkələrdə məşhur olan yapon yeməklərinin içindəki çiy və yarımçiy balıqlardan asanlıqla insan orqanizminə daxil ola bilir.

## *Eyyub Hüseynov: "...bu qida "rus ruletkası" kimi bir şeydir, kimə düşəcək, kimi zəhərləyəcək - məlum deyil"*

## *Xatirə İsayeva: "Suşi"nin qəbul edilməsi körpələrin qüsurlu doğulmasına, bədəndə qurdların yaranmasına, qanın zəhərlənməsinə səbəb ola bilir"*

Artıq bir sıra xarici ölkələrdə "suşi"nin hazırlanması və reklam olunması qadağan olunub. Analoji qaydanın ölkəmizdə də tətbiq olunması təklif edilir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, Bakıda təkcə 50 min kafe-restoran fəaliyyət göstərir. Onlara necə nəzarət edildiyi sual doğurur: "Buna görə hansısa mexanizm yoxdur. Bunun qarşısını almaq üçün istehlakçı hüquqları mükəmməl şəkildə qorunmalı, sertifikat verən orqanla insanların sağlamlığına nəzarət edən orqan ayrı olmalıdır".

Onun sözlərinə görə, hər bir istehlakçı bilməlidir ki, balıq, göbələk, balıq konservləri, "suşi"lər zəhərlənmə risqi böyük olan qidalardır. Bunlarla çox ehtiyatlı davranmaq lazımdır: "Suşi" fırlanan lent üzərindədir. Bu qida "rus ruletkası" kimi bir şeydir. Kimə düşəcək, kimi zəhərləyəcək - məlum deyil. "Suşi" yaxşı qida deyil. Son 15 ildə Azərbaycana gətirilib. Bunun xammalı, hansı balıqdan hazırlandığı, balığın nə zaman tutulduğu çox əsasdır. Bu böyük risqli qidadır. Əhali özü buna tələbat yaradır. "Suşi" Azərbaycan üçün xarakterik qida deyil".

Terapevt Xatirə İsayevanın sözlərinə görə, çiy ət və balıqlar toksoplazmanın yaranması üçün idealdır. Bu qidaların qəbul edilməsi körpələrin qüsurlu doğulmasına, bədəndə qurdların yaranmasına, qanın zəhərlənməsinə səbəb ola bilir: "Keyfiyyətli olmayan bütün qidalar insan sağlamlığı üçün ziyanlıdır, eləcə də "suşi"nin tərkibi. Sadəcə, "suşi"nin tərkibi daha çox çiy qaldığından, bu qidanı yeyərkən diqqətli olmaq lazımdır. Mümkün qədər uşaqlara "suşi" yedizdirilməməlidir. Mağazalarda "suşi"nin ayrı-ayrı komponentləri satılır. Valideynlər bunları alaraq evdə özləri də bişirə bilər. Nəzərə almaq lazımdır ki, "suşi" Azərbaycan üçün xas olan qida deyil, bu səbəbdən "suşi"ni yemək istəyənlər diqqətli olmalıdırlar".

***Günel CƏLİLOVA***

# 48 min nikah, cəmi 105 nikah müqaviləsi - nonsens...

**Evlilikdən öncə yada düşülməli olan məqamlara, nədənsə, vaxtında önəm verilmir. "Biz boşanmaq üçün evlənmirik" prinsipilə cütlüklər toydan öncə nikah müqaviləsinə əhəmiyyət vermirlər. Tərəflərdən hansısa nikah müqaviləsi bağlamağı təklif olaraq irəli sürsə, qarşı tərəf "sən mənimlə boşanmaq üçün evlənirsən?" kimi suallar verir.**



***Aytəkin Kamranqızı:*** *"Cəmiyyətdə gedən proseslər nikah müqavilələrinə ehtiyacı günü-gündən artırır"*

***Fatimə Hacıbəyli:*** *"Bu gün nikah müqaviləsi bağlayanların böyük əksəriyyəti əcnəbilərlə ailə quranlardır"*

***Könül Vaqifqızı:*** *"Nikah müqaviləsinin bağlanması çox vaxt kişilərə sərf edir, qadınlar isə..."*

Bu kimi problemlərdən dolayı da nikah müqaviləsini tələb etmək istəyənlər qarşı tərəfin reaksiyasından çəkindikləri üçün bununla bağlı heç bir tələb irəli sürmürlər.

Evlilikdən öncə ancaq xoşbəxtlik haqda fikirləşən cütlüklərin düşüncələri heç də həmişə real olmur. Çünki boşanmaların statistikası hər il acınacaqlı faktlar ortaya qoyur. Nikah müqaviləsi isə boşanma vaxtı yada düşür. Çünki hər şey qanun səviyyəsində olanda tərəflər bir-biri qarşısındakı öhdəlikləri ilə bağlı süründürməçiliklə üzləşmirlər. Azərbaycanda nikah müqavilələri ilə bağlı statistik rəqəmlər heç bir halda qaneedici hesab oluna bilməz.

Qeyd etdiyimiz kimi, boşanmaların sayı günü-gündən artır. Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin 9 ayı ərzində 47.137 nikah, 13 minə yaxın boşanma qeydə alınıb. Boşanmaların sürətlə artdığı ərəfədə qeydə alınan nikah müqavilələrinin sayı isə 105-dir. Cari il ərzində 48 minə yaxın nikah qeydə alındığı halda, cəmi 105 nikah müqaviləsi bağlanıb.

Boşanmaların sürətlə artdığı bir dövrdə nikah müqaviləsini bağlamaq hələ də xoş qarşılanmır. Məsələn, oğlan evi bunu ayıb, qız evi bədniyyətlilik kimi qəbul edir. Ancaq tərəflər boşansa, əmlak bölgüsü zamanı bir sıra problemlər ortaya çıxır. Nikah müqaviləsi olmadığı üçün, boşanma zamanı əmlak bölgüsü üstündə az qala düşmənə çevrilirlər.

Azərbaycanda da ildən-ilə boşanma hallarının çoxaldığını nəzərə alsaq, bunun nə dərəcədə əhəmiyyətli olduğu üzə çıxır. Nikah müqavilələri tərəflərin razılığı ilə istənilən dövrdə dəyişdirilə, yaxud ləğv edilə bilər və bu razılıq yazılı formada olmalıdır. Nikah müqaviləsinə xitam verildiyi halda, ər-arvadın müqavilədə nəzərdə tutulan hüquq və vəzifələrinə də xitam verilir.

Sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, cəmiyyətdə gedən proseslər nikah müqavilələrinə ehtiyacı günü-gündən artırır: "Əvvəllər adət-ənənə elə şəkildə qurulmuşdu ki, insanların bir-birinə bu məsələlərdə etibarı böyük idi. Ona görə ailələrin dağılması statistikası da aşağı idi. İndi həm insanların bir-birinə etibarı azalıb, həm də bəzən ailələr müəyyən qarşılıqlı hörmət, sevgi əsasında deyil, sosial, maddi faktorlar üzərində qurulur. Statistikaya baxdıqda ailələrin tez-tez dağıldığını görürük. Ona görə də müqavilələrə ehtiyac çoxalır. Nikah müqaviləsi ilə evlənən şəxslər öz üzərlərinə müəyyən öhdəlik götürmüş olurlar. Hər iki tərəfin müəyyən qədər məsuliyyət götürməsi məsələsi ailə qurmağa daha ciddi yanaşmağa təsir edəcək. Çünki insanlar arasındakı münasibətlərdə maddiyyat güclü olduğu üçün, bu müqavilələrin özü də bu istiqamətdə insanlara təsir edir. İnsanlar ailə quranda, eyni zamanda, başa düşürlər ki, onlardan mənəvi amillərlə bərabər, maddi tələb də var. Ailə qurmağa qərar verəndə daha dərindən düşünməli olurlar. O biri tərəfdən, ailə dağılanda da əmlak problemlərinin həlli istiqamətində bu müqavilə həlledici rola malikdir".

Psixoloq Könül Vaqifqızının sözlərinə görə, nikah müqavilələrinin bağlanmamasında xanımların payı böyükdür: "Bu müqavilənin olmamasından daha çox əziyyət çəkən xanımlar olsa da, evlilikdən öncə onlar bu müqaviləni tələb etməyə utanırlar. Buna adi bir sənəd kimi yanaşsalar, çəkinmədən müqavilə bağlamaq istəklərini də qarşı tərəfə deyə bilərlər. İslam dinində mehriyyə deyilən bir şey var. Nikahdan öncə xanıma nə veriləcəyi ilə bağlı bir kağızdır. Bizdə xanımlar müqavilə ilə nəsə tələb etməyi özlərinə ayıb hesab edirlər. Bunu həm islamın, həm də dövlətin bir qanunu hesab etmək lazımdır. Problem budur ki, maariflənmə yoxdur. Maariflənmə olsa, insanlar buna normal yanaşsa, müqavilələrin bağlanması da adiləşər.

Nikah müqaviləsinin bağlanması çox vaxt kişilərə sərf edir. Qadınlar isə düşünürlər ki, belə bir müqavilə tələb etsələr, qarşı tərəflə münasibətləri pozula bilər. Amma qadın öz hüquqlarını bilməlidir. Buna ayıb yox, qanun kimi yanaşmaq lazımdır. Bəzən kişilər bu məsələlərə görə qadınlarla münasibətləri poza bilirlər. Nikah müqaviləsində də qarşı tərəfin maddi durumuna fikir vermək lazımdır. Bir-birindən real olmayan nələrisə müqavilə ilə tələb etdikdə bu, münasibətləri korlaya bilər. Qanunları bilən, dindən məlumatı olan, müəyyən kitablar oxuyan hər bir şəxs bu müqaviləni normal qəbul edəcək".

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli qeyd etdi ki, bu gün nikah müqaviləsi bağlayanların böyük əksəriyyəti əcnəbilərlə ailə quranlardır: "Əsasən əcnəbilərlə nikaha daxil olanlar nikah müqaviləsi bağlayırlar. Demək olar ki, yerli vətəndaşlar arasında nikah müqaviləsi bağlanmır. Bu stereotiplər hələ də Azərbaycan ailəsində qırılmayıb. Məhz bunun nəticəsidir ki, bu gün boşanan ailələr arasında əmlak davası açılır. Qarşı tərəf əmlakını bölüşdürməkdən imtina etdiyi üçün, qadın heç nəsiz küçəyə atılır. Nikah müqaviləsinin bağlanmamasının yaratdığı problemləri boşanan ailələr yaşayırlar. Boşandıqdan sonra cütlüklər arasında kifayət qədər əmlak davası açılıb. Şəxslər nikah müqaviləsi bağlayarkən müəyyən edirlər ki, boşandıqdan sonra əmlak necə bölüşdürüləcək. Bu müqavilənin şərtləri vətəndaşların özləri tərəfindən müəyyənləşdirilir".

***Günel CƏLİLOVA***

# Yediyimiz əsasən palma yağları imiş, hətta kərə yağı da...

**Bu gün istehsal olunan əksər qida məhsullarında palma yağlarından istifadə edilir. Bir sıra mütəxəssislər, o cümlədən, sağlam qidalanma ekspertləri, dietoloqlar palma yağlarının insan orqanizmi üçün zərərli olduğunu söyləsələr də, bəziləri bunu inkar edirlər. Hətta palma yağının xərçəng xəstəliyinə səbəb olduğu deyilir.**

Buna baxmayaraq, palma yağlarının mənfi təsirləri ilə bağlı artıq insanlarda fikir formalaşıb və bu yağ olmayan qidalarla üstünlük verirlər.

Qeyd edək ki, palma yağından müxtəlif şirniyyat məhsullarında, həmçinin, sabun və şampunların tərkibində geniş istifadə edilir. Ətraf mühit üçün çox təhlükəli, dağıdıcı effektə malik olduğu deyilən bu yağın istehsalı ilə bağlı rəqəmlərə nəzər yetirdikdə arzuolunmaz bir mənzərə ilə tanış ola bilərik. Son 50 ildə dünyada palma yağının istehsalında ciddi artım olub. Bu gün dünyanın 150 ölkəsində 3 milyard insan palma yağı məhsullarından istifadə edir. İllik olaraq isə hər bir insanın 8 kiloyadək palma yağı qəbul etdiyi bildirilir.

Palma yağının geniş yayılmasının səbəbi isə ucuz başa gəlməsi və daha keyfiyyətsiz hesab edilən bütün digər yağları əvəzləyə bilməsidir.

Məlumat üçün bildirək ki, palma yağının zərərləri ilə bağlı alimlər ilk dəfə olaraq 1960-cı ildə həyəcan təbili çalıblar. Onlar hətta bu yağın müxtəlif ürək xəstəliklərinə səbəb olduğunu da bildiriblər.

ABŞ artıq bu ildən etibarən marqarin və palma yağından imtina edir. Bununla bağlı 2015-ci ildə ABŞ-ın Qida və Dərman Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Məlumatda bu yağların satışdan yığışdırılması və istehsalının dayandırılması üçün 3 ilədək zaman verildiyi qeyd olunmuşdu.

Azərbaycanda isə istehlakçıların böyük qismi bu yağların zərərindən xəbərsizdir. Valideynlər hər gün uşaqlarına aldıqları şirniyyatların tərkibindəki bu yağın övladlarının səhhətinə necə böyük zərər vurduğunu bilmirlər.

Daxili bazarda bir sıra keyfiyyətsiz məhsulların olması günümüzün acı reallıqlarından biridir. Onu da qeyd edək ki, qadağan olunan qidalar siyahısında palma yağları da var. Lakin hələ də satışda tərkibi palma yağı ilə zəngin olan yağlar var.

Professor Adil Qeybulla "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda satılan kərə yağlarının heç biri standartlara uyğun deyil: "Əslində, istifadə etdiyimiz yağların dad xüsusiyyətləri kərə yağı səviyyəsinə çatdırılmış yağlardır. Palma və müxtəlif bitki yağları buna misaldır. Bununla bağlı dəfələrlə məsələ qaldırılıb, lakin yağ bazarına nəzarət edən strukturlar bunu qətiyyətlə təkzib edirlər. Onu sübut etmək üçün isə əlimizdə xüsusi bir laboratoriya olmalıdır. Ümumiyyətlə, sübut olunub ki, yağların həddən artıq qızardılması, dağ edilməsi nəticəsində konserogen tipli maddələr əmələ gəlir. Onlar da çökərək damar divarlarını qalınlaşdırır, ürək-damar xəsəliklərinə səbəb olur. Bu gün xərçəng xəstəliyinin artmasına səbəb ölkədə qidalanma məsələsidir. Onların da bir hissəsi yağların payına düşür. Yağlarla çox ehtiyatlı olmaq lazımdır. Onlar insanlarda xüsusi asılılıq yaradır. Bu da uzun müddət istifadə etdiyimiz, öyrəşdiyimiz qida rasionumuza ziddir".

İqtisadçı Fuad İbrahimli bildirdi ki, palma yağı xarici görkəminə görə kərə yağına oxşayır. Bu gün kərə yağı maya dəyərindən ucuz satılırsa, bu onu deməyə əsas verir ki, palma yağı əsasən kərə yağı adı altında, dəyərindən 8-10 dəfə baha qiymətə istehlakçılara satılır: "Bu sahəyə nəzarət çox zəif olan digər ölkələrdə də palma yağından istifadə edilir. Rusiya, Ukrayna bazarlarında belə məhsullar var. Həmin ölkələrdə də yağların qablaşdırılması ilə məşğul olan sahibkarlar bundan istifadə edirlər".

Pediatr Aytən İsmayılzadə bildirdi ki, palma və bu kimi digər zərərli yağlardan uşaq qidalarında istifadə edildiyi təsdiq edilib: "Uşaq qidalarında palma yağından müəyyən dozada istifadə edilir. Bu zaman palma yağı kalsiumun sovrulmasına mane olur. Belə qidalarla böyüyən uşaqlarda kalsium çatışmazlığı daha çox hiss olunur. Şirniyyat məhsullarında palma yağından daha çox istifadə edilir".

**Palma yağının trans hesab edilən yağlar sırasında birinci olduğunu deyən ekspert onun zərərlərindən də söz açıb: "Trans yağlar formasını dəyişən yağlardır. Bu cür yağlar doymamış yağ turşularının hidrogenləşməsindən yaranır. Bu səbəbdən də həmin yağlar insan səhhəti üçün kifayət qədər ziyanlıdır. Belə zərərli yağlarla qidalanan şəxslərdə piylənmə, hüceyrələrin zədələnməsi, qaraciyərin yağlanması, metabolizmin pozulması müşahidə edilə bilər. Ən təhlükəli yağ hesab edilən palma yağı istifadə edilərkən müxtəlif mədə-bağırsaq xəstəliklərinin, o cümlədən, xərçəngin yaranmasına səbəb olur".**

*Günel CƏLİLOVA*



***Fuad İbrahimli:*** *"...dəyərindən 8-10 dəfə baha qiymətə istehlakçılara satılır"*

***Adil Qeybulla:*** *"...dad xüsusiyyətləri kərə yağı səviyyəsinə çatdırılmış yağlardır..."*

***Aytən İsmayılzadə:*** *"...xərçəngin yaranmasına səbəb olur"*

№ 209 (4107) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

26 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Ayı avtomobilin qapısını açıb, maşının içində yuxuya getdi

**Sosial şəbəkələrdə yayılan video maraq doğurub. "Milli.Az" xarici mətbuata istinadla xəbər verir ki, təhlükəsizlik kamerasına düşən görüntülərdə ayının yol kənarında dayanan avtomobilə daxil olaraq, içərisində yuxuya getməsi əks olunub.**



Kadrlar ABŞ-ın Kaliforniya ştatında Taho gölünün yaxınlığında çəkilib. Adam Armstrong adlı şəxs avtomobilini qapısı açıq vəziyyətdə qoyaraq yatmağa gedib. O, ayılanda avtomobilinin qapısının açıq olduğunu görüb. Təhlükəsizlik kamerasına düşən görüntüləri izləyən kişi təəccüblənib. Belə ki, görüntülərə görə meşə ayısı onun "Subaru" markalı avtomobilinin arxa sərnişin qapısını açaraq maşına daxil olub və orada yatıb. "Səhər ayılanda gördüm ki, maşının qapısı açıqdı. Əvvəlcə qorxdum. Görüntülərə baxanda təəccübləndim. Amma maşına ziyan dəyməmişdi", - Adam Armstrong söyləyib.

## Bolqarıstanda Avropa İttifaqı ölkələri arasında ən aşağı ömür müddəti qeyd olunub

Bolqarıstanda əhalinin orta ömür müddəti 74,8 yaş təşkil edir. "AZƏRTAC" bildirir ki, bu göstəriciyə görə ölkə Avropa İttifaqı ölkələri arasında siyahıda ən sonuncu pillədə yerləşir. Avropanın Statistika Agentliyinin məlumatına əsasən, Bolqarıstandan yuxarı Latviya 74,9 yaş, Rumıniya 75,3 yaş, Litva 75,8 yaş göstəricisi ilə yerləşir. Avropa İttifaqında orta ömür müddəti 2017-ci ilə görə 80,9 yaşa bərabər olub. Ən uzun ömürlülərin ölkələri İspaniya 83,4 yaş və İtaliya 83,1 yaşdır. Eyni zamanda göstərilir ki, Avropa İttifaqında kişilərin orta ömür uzunluğu 78,1 yaş, qadınların isə 83,5 yaş təşkil edir.



# "Xiaomi" "ağıllı" yastıq təqdim edib

**"Xiaomi" şirkəti mütəmadi olaraq geniş çeşidli məhsullar təqdim edir.**

Yastıq 93% Taylanddan gətirilmiş təbii lateksdən hazırlanıb. O, ölçüsünə görə həm qadınlar həm də kişilər üçün nəzərdə tutulub. Kişilər üçün olan 60x34x7sm qabaritlidir və 1,2 kq çəkiyə malikdir. Kiçik ölçülü olanı isə 60x34x5(8)sm qabaritlidir və 1 kq.-dır. Qulaqların düşdüyü mərkəzi hissə bir qədər içəri batıq formadadır. Burada elektrik istiqac və üç impulsiv antena yerləşir. Onlar qan dövranını sürətləndirir və qulaqlarda gərginliyi aradan qaldırır. Elektrik istiqac 38-53 dərəcə diapazonunda 6 fərqli temperaturda ola bilir. Üç antenası 1000 Hz tezlikdə impuls ötürür. 15 sürət tənzimləyicisi müxtəlif növ massaj və hətta iynələrlə müalicə etmə həyata keçirir. Yastığın iki stereodinamikası və "Bluetooth"u var və onlar smartfona qoşulamq üçün istifadə edilirlər. Bundan başqa, intelektual yuxu müddəti və keyfiyyəti təhliledicisi, yaxşı yuxu üçün tövsiyələri və istiliklə massajı deaktiv etmə funksiyaları da var.







**Qoç** - Gün qeyri-standart çıxış yolları və qeyri-adi davranışa üstünlük verənlər üçün çox uğurludur. Şəxsi həyatınızda təşəbbüs göstərin. Yaxınlarınız ideyalarınıza dəstək olacaqlar.



**Buğa** - Çoxdan arzuladığınız bir işi həyata keçirə bilərsiniz, tərəddüd etməyin, uğur sizinlə olacaq. Şəraitin uğurlu istiqamətdə dəyişməsi çoxdankı bir ideyanızı reallaşdırmağınıza imkan verəcək.



**Əkizlər** - Rəhbərliklə münaqişədən qaçın: tezliklə yüksəkvəzifəli şəxslərin dəstəyinə ehtiyacınız olacaq. Dostlarla ünsiyyət, həmfikirlərlə görüşlər üçün münasib gündür. Yaradıcı peşənin adamlarının yeni layihələrlə bağlı gözəl ideyaları olacaq.



**Xərçəng** - Mövqeyinizi qorumaq üçün qətiyyət göstərməyiniz gərək olacaq. Sərt müzakirələrə qatılan Xərçənglər daha yüksək vəzifə tutan insanlarla kəllə-kəlləyə gələcəklər. Kişilərlə dil tapmaq isə çox asandır.



**Şir** - Ünsiyyət üçün əla gündür, istənilən xarakterli görüş təyin edə bilərsiniz. İntuitiv olaraq özünüzü necə aparmağı, söhbət üçün hansı tonu seçməyi, insanı maraqlandırmaq üçün ona nə təqdim etməyi gözəl bilirsiniz.



**Qız** - Çox uğurlu gündür. Hər şeyi qara tonlarda görməyə adət etmiş insanlardan kənar gəzin, onların təsiri altına düşə bilərsiniz. Nikbin adamlarla ünsiyyət isə kefinizi açacaq və bu əhval uzun müddət davam edəcək.



**Tərəzi** - Sizin üçün yeni, maraqlı imkanlar yaranır. Xoşbəxtlikdən, kifayət qədər təcrübəniz və özünüzə inamınız var və onlardan düzgün istifadə edərək şansınızı qaçırmırsınız. Müxtəlif xarakterli gözlənilməz təkliflər almağınız mümkündür.



**Əqrəb** - Həyatınızda dəyişikliklər istəyirsiniz? Nə durmusunuz, hərəkət edin! Təşəbbüs göstərmək, yeni layihələrə başlamaq zamanıdır. Heç bir çətinlik çəkmədən tərəfdaş tapır, nüfuzlu insanların dəstəyini qazanırsınız.



**Oxatan** - Bu günün hadisələri bir çox Oxatanları sevindirəcək. Yeni işə başlaya, iş yerinizi dəyişə, uzunmüddətli əməkdaşlıq barədə danışıqlar apara bilərsiniz. Qarşınızda açılan perspektivlər çox gözəldir.



**Oğlaq** - Çox yaxşı bir gün keçirəcəksiniz. Əgər onun daha da məhsuldar olmasını istəyirsinizsə, əvvəlcədən hərəkət planı qurun və bütün xırdalıqlarına qədər ona əməl edin. Zəifliklərinizə qapılmağınız ciddi ziyan verməsə də, uğur qazanmaq şansınızı yarıbayarı azaldacaq.



**Dolça** - Günün birinci yarısı dünyada heç nə sizin öz gücünüzə inamınızı sarsıda bilməz. Çətin işləri görməyə, mürəkkəb məsələləri həll etməyə çalışın. Bir çox Dolçaların yeni məqsədləri var.



**Balıqlar** - Xasiyyətinizin ən gözəl tərəflərini nümayiş etdirmək üçün əla gündür. Cəsarət, qətiyyət, fəhm həm qarşınıza qoyduğunuz məqsədə çatmağınıza, həm də biganə qala bilmədiyiniz bir insanı valeh etməyinizə imkan verəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Hitlerin şlyapası, Evanın libası hərraca çıxarıldı

**Almaniyada Hermann "Historica" hərrac evi Üçüncü reyxin elitasının əşyalarını satışa çıxarıb.**



"Qafqazinfo" xəbər verir ki, satışa çıxarılan əşyalar arasında Adolf Hitlerin şlyapası və Eva Braunun libası da var. Hərrac bu gündən Qrasbrunn şəhərində başlayıb. Şlyapa üçün başlanğıc lot 50 min avro təyin edilib. Qeyd edək ki, satışa, həmçinin, Hitlerin digər əşyaları da təqdim olunub.

*Hazırladı: Ramil QULİYEV*

### Elan

Şəki rayonu, Şin kənd sakini Paşayev Zahid Yunus oğlunun adına verilmiş JN:252 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Feyzullayev Beydulla Nəsrullah oğluna məxsus 8971/551 saylı fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.